**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NİGAR MÜBARİZ qızı RƏFİYEVA**

# MÜASİR DÖVRDƏ İNDONEZİYADA DEMOQRAFİK PROBLEMLƏR

**İxtisas: HSM-060211 Ölkəşünaslıq [İndoneziya üzrə]**

**MAGİSTRLİK DİSSERTASİYASI**

**Elmi rəhbər: dos. G.R.Ağakişiyeva**

**BAKI – 2022**

# MÜNDƏRİCAT


**GİRİŞ...................................................................................................3**

**I FƏSİL. İNDONEZİYANIN DEMOQRAFİK REALLIQLARI................8**

1.1. Demoqrafik vəziyyətin formalaşmasına təsir göstərən amillər..................8

1.2. Əhalinin etnik və dini tərkibinin demoqrafik inkişafa təsiri...................18

1.3. İndoneziyada əhalinin təbii artımı və məskunlaşma problemləri.............27

**II FƏSİL. İNDONEZİYANIN DEMOQRAFİK İNKİŞAF PERSPEKTİVLƏRİ...........................................................................38**

2.1. İndoneziya dövlətinin demoqrafik siyasəti..........................................38

2.2. Miqrasiyanın İndoneziyanın demoqrafik inkişafında rolu........................46

2.3. İndoneziyanın əmək ehtiyatları və məşğulluq problemləri.....................53

**NƏTİCƏ.................................................................................................63**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI........................................65**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Demoqrafik problemlər dedikdə biz cəmiyyətin həyatında baş verən bir sıra hadisə və prosesləri nəzərdə tuturuq. Çünki dünyada baş verən siyasi, iqtisadi, sosial və ekoloji hadisələr birbaşa demoqrafik proseslərə təsir göstərir, regionların sosial-iqtisadi inkişaf konsepsiyası demoqrafik inkişaf konsepsiyası ilə birlikdə, vəhdət şəklində aparılır. Bu da gələcək regionun və ya ölkənin inkişaf istiqamətlərini və meyillərini müəyyən etməyə köməklik göstərir. Demoqrafik problemlərin müşahidə edildiyi ölkələrdə isə baş verən hadisələr əhalinin və onun tərkib hissəsi olan əmək ehtiyatlarının hərəkət dinamikasına təsir göstərir. Bu ölkələrdə əhalinin təbii artımı, məskunlaşması, sosial xidmətlə təminatı, məşğulluğu və s. özünü müxtəlif formalarda biruzə edir. İndoneziyada əhalinin kəskin surətdə artması ölkədə demoqrafik partlayışa səbəb olmuşdur ki, bu da öz növbəsində ölkədə demoqrafik problemin həllini tələb edir. Bu baxımdan, təqdim olunan “Müasir dövrdə İndoneziyada demoqrafik problemlər” adlı dissertasita işi olduqca aktualdır.

Müasir dövrdə demoqrafik proseslər dünyada prioritet problemlərdən hesab edilir. Bəzi mütəxəssislərə görə demoqrafik proseslər digər problemlərin həllində əsas vasitə hesab edilir. Əhalinin təkrar istehsalı, əhalinin formalaşması, inkişafı və deqradasiya prosesləri, peşə strukturunun dəyişməsi və s. məsələlər dünyada əsas yer tutur. Demoqrafik proseslər arasındakı qarşılıqlı əlaqələri, onların sosial-iqtisadi hadisələrdən asılılığını, habelə əhali inkişafının sosial-iqtisadi nəticələrini öyrənməklə, əhali hərəkətinin qanun və qanunauyğunluqlarını, əhali ilə ictimai inkişaf arasındakı qarşılıqlı təsiri üzə çıxarmaq mümkündür. Məhsuldar qüvvələrin inkişafı ilə əhali arasındakı nisbəti aşkarlayan məsələlər əsas olduğundan, tədqiqat işində demoqrafik təzahürlər və proseslər öyrənilmişdir.

Demoqrafik problemlərin öyrənilməsində mütəxəssislər arasında fikir ayrılığı vardır. Belə ki, bəzi mütəxəssislər demoqrafik prosesləri əhalinin təbii hərəkətinin qanunauyğunluqlarını, yəni onun təkrar istehsalını (doğum, ölüm, təbii artım), əhalinin müəyyən yaş, cins və ailə tərkibinin formalaşmasını öyrənməkdə görürlər.

Digərləri isə buraya əhalinin ərazilər üzrə yerdəyişməsinin (miqrasiyaların), habelə əhali siyasəti məsələlərinin öyrənilməsini də əlavə edir, yəni demoqrafik prosesləri daha geniş başa düşürlər. Lakin, bütün hallarda demoqrafik proseslərin statistik məlumatlar və əhali yerləşməsi ilə əlaqəsi qaçılmazdır. Ölkələrin və ya regionların demoqrafik və sosial-iqtisadi inkişafı arasında qarşılıqlı əlaqələrin öyrənilməsi də aktualdır.

Dünyada baş verən demoqrafik tendensiyaları müzakirə edərkən, əksər təbiətşünaslar bu prosesləri demək olar ki, yalnız bioloji proseslər kimi şərh edirlər. Təbii ki, insanların davranışında və ictimai həyatın təşkilində böyük rol oynayan bioloji konstitusiya var. Eyni zamanda, insanlar cəmiyyətdə sosial normalar, informasiya və ənənələr sistemində yaşayır. İnsan cəmiyyətində bütün proseslər, təbii ki, ikili, dialektik xarakter daşıyır, insanın bioloji təbiətinə insanın yaşadığı və fəaliyyət göstərdiyi sosial şərait vasitəçilik edir. Hər hansı bir fərdi hadisə, insanların iştirak etdiyi hər hansı bir proses, sosial-bioloji quruluşa malikdir. Lakin əksər hallarda sosial, mədəni tərəf biolojidən üstündür. Başqa sözlə, biz böyük ölçüdə insanların bütün davranış və fəaliyyətlərinə həlledici təsir göstərən, əksər hallarda hətta onların bioloji təbiətini boğaraq mədəniyyət adlanan bəşəriyyət (əhali) tərəfindən idarə olunur.

İndoneziya dünyanın ən böyük ada dövlətidir, əhalisinin 88,2%-ni müsəlmanlar təşkil edir. Ölkə, ərazisinə və əhalisinə görə Cənub-Şərqi Asiya ölkələri içərisində ilk yeri tutur. İndoneziya yüksək inkişaf tempinə malik olan “yeni sənaye iqtisadiyyatnın ikinci dalğası” adlandırılmış və son 5 ildə ÜDM orta hesabla 5,1% artmışdır. Bu göstərici dünya üzrə orta hesabla 3,4% artımış, Asiya ölkələrindən isə İndoneziya yalnız Çin, Hindistan və Malayziyadan geri qalmışdır [16]. 2017-ci ildə İndoneziyanın ÜDM-sı 1 trln ABŞ dolları, adambaşına düşən ÜDM-nin həcmi isə 3876 ABŞ dolları olmuşdur [25]. Bütün bu göstəricilər İndoneziyada əhali məskunlaşmasına, yeni iş yerlərinin açılmasına, demoqrafik proseslərə və ölkənin yürütdüyü demoqrafik siyasətə birbaşa təsir edir.

Ümumiləşdirilmiş şəkildə deyə bilərik ki, İndoneziya dünyanın ən cəlbedici və əhali məskunlaşmasının intensivliyinə görə qabaqcıl bölgələrindən biri hesab olunur.

Lakin müasir dövrün elm və texnololoji inkişafına baxmayaraq, İndoneziya dünyanın zəif öyrənilmiş bölgələrindən biri olaraq hələ də qalmaqdadır. Adaların çoxluğu, onların əlçatmazlığı, isti iqlimi, tropik xəstəliklər və digər amillər tədqiqatların təşkilini çətin, bəzən isə qeyri-mümkün bir prosesə çevirmişdir.

**Problemin öyrənilmə dərəcəsi.** Mövzuya dair həm yerli, həm də xarici müəlliflərin çoxlu sayda əsərləri vardır. Yerli müəlliflərdən H.B.Soltanovanın "Dünyanın iqtisadi və sosial coğrafiyası" (Bakı, 2011), V.Ə.Əfəndiyev, S.Q.Nağıyevin "Əhali coğrafiyası" (Bakı, 2006), N.A.Axundov, C.A.Məmmədovun "Avrasiya. Dünya dövlətlərinin əsas coğrafi, siyasi və iqtisadi göstəriciləri" (Bakı, 2000), rus tədqiqatçılarından V.V.Volskinin "Xarici dünyanın sosial-iqtisadi coğrafiyası" (Moskva, 1998), V.P.Maksakovskinin "Dünyanın coğrafi mənzərəsi. Dünyanın regional səciyyəsi" (Moskva, 2005), A.V.Popovun "İndoneziyanın iqtisadiyyatı: müasir vəziyyət və inkişaf tendensiyaları" (Moskva, 2019) kitablarında İndoneziyanın demoqrafik problemləri əhatəli şəkildə öyrənilmişdir.

V.V.Volskinin "Xarici dünyanın sosial-iqtisadi coğrafiyası" (Moskva, 1998, rus dilində) kitabında İndoneziyada məskunlaşmanı, bilavasitə təbii şəraitin müəyyən etməsi öyrənilmiş, meşələrlə örtülü və həddən artıq rütubətli adaların ilk insanlar üçün əlverişsiz olması göstərilmişdir. Kiçik Zond adalarında quru iqlimlə əlaqədar torpağı becərməyin suvarma tələb etdiyi və məskunlaşma üçün optimal şəraitin Yava adasında olması vurğulanmışdır. İndoneziyada ilk məskunlaşmanın qərbdən başlayaraq, şərqə tərəf istiqamətlənməsi, etnik tərkibə görə heç bir adanın digərinə bənzəmədiyi göstərilmişdir. Cənub-Şərqi Asiya demoqrafik inkişafa görə təhlil edilmiş, demoqrafik inkişaf baxımından region 2 subregiona ayrılmışdır. İndoneziyanın demoqrafik inkişafa görə stabil ölkələr siyahısında olduğu göstərilmişdir. Həmçinin, BMT-nin hazırladığı dünya ölkələri üzrə əhalinin sayının dinamikası bülletenində İndoneziyanın yeri müəyyən edilmişdir. Kitabda Cənub-Şərqi Asiyada etnik tərkib də araşdırılmışdır. Etnik tərkibə görə region 3 qrupa ayrılmış və İndoneziya əsas xalq anlayışı olmayan ölkələr qrupunda yer almışdır.

V.P.Maksakovskinin "Dünyanın coğrafi mənzərəsi. Dünyanın regional səciyyəsi" (Moskva, 2005, rus dilində) kitabında 1969-cu ildə İndoneziyada reallaşan

Milli inkişaf planının ölkə iqtisadiyyatının qarşısında ciddi vəzifələr qoyması, təsərrüfatın strukturunun dəyişməsi, məşğul əhalinin iqtisadi fəaliyyət sahələrinə görə paylanması araşdırılmışdır. İndoneziyanın Cənub-Şərqi Asiya regionunda sosial-iqtisadi vəziyyətdə mövqeyi tədqiq edilmişdir. Kitabda məşğul əhalinin sayına görə, dövlətin paytaxtı Cakarta şəhərinin ən böyük əhaliyə malik şəhərlər içərisində yeri, ən az həkimə malik dünya ölkələrindən biri kimi İndoneziyanın seçilməsi göstərilmişdir. ÜDM-nin inkişafı baxımından Cənub-Şərqi Asiya regionunun 2 ölkəsindən biri olan İndoneziyanın imkanlarının dünya mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilməsi vurğulanmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində İndoneziyanın müasir demoqrafik vəziyyətinin təhlili, ölkədə demoqrafik problemlərin yaranma səbəbləri və onların aradan qaldırılması yolları, demoqrafik problemlərin həlli istiqamətində görülən işlər və demoqrafik siyasətin yerinə yetirilməsi üçün hazırlanan konsepsiyaların təhlili məqsəd kimi qarşıya qoyulmuşdur.

Məqasədə nail olmaq üçün aşağıdakı vəzifələrin həlli tələb olunur:

- demoqrafik problemlərin yaranma səbəblərini müəyyən etmək;
- əhalinin təbii artımı və demoqrafik siyasətlə bağlı görülən işlərin təhlilinin aparılması;
- etnik və dini zəmində yaranan demoqrafik reallıqları əks etdirmək;
- miqrasiyanın demoqrafik inkişafda rolunu açıqlamaq;
- əmək ehtiyatları və məşğulluqla bağlı problemləri araşdırmaq;
- məskunlaşma sisteminin və iri yaşayış məntəqələrinin ərazi inkişaf konsepsiyasını müəyyən etməkdir.

**Tədqiqat işinin nəzəri və metodoloji bazası.** Tədqiqat işinin nəzəri əsasını BMT-nın hesabatları, İndoneziya səfirliyinin internet resursları, İndoneziyanın statistika idarəsinin fond materialları, İndoneziya hökuməti tərəfindən qəbul olunmuş dövlət proqramları və müxtəlif ədəbiyyatlar təşkil edir. Tədqiqat işinin metodoloji əsası kimi isə kameral şəraitdə tarixi-ərazilik, statistik təhlil, müqayisəli yanaşma,

sistemləşdirmə və s. metodlardan, eləcə də fond və arxiv materiallarından istifadə olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi.** İşin elmi yeniliyinə aşağıdakılar aiddir:

- İndoneziyada demoqrafik vəziyyət təhlil edilərək, təkrar istehsalın və əmək ehtiyatlarının iqtisadi cəhətdən daha əhəmiyyətli yaş qruplarının say tərkibində də azalması müəyyən edilmişdir;
- İndoneziyada böyük ailədən kiçik ailəyə tədricən keçid müşahidə edilmişdir ki, bu da yaşlı əhalinin xüsusi çəkisinin artmasına, orta yaşlı əhalinin üzərinə düşən iqtisadi yükün artmasına səbəb olmuşdur;
- İndoneziyada əmək miqrantlarının sayında qadınların sayı (69%) kişiləri (31%) üstələmiş, lakin qadınların əməyindən sui-istifadə halları qeydə alınmışdır, çünki onlar istismara qarşı daha həssas təbəqə hesab edilir;
- İndoneziyada etnik qrupların (150-dən çox) assimilyasiyaya uğraması, miqrasiya axınları zamanı onların etnik dəyişkənliyə məruz qalması halları müşahidə edilmişdir.

**Dissertasiyanın elmi və praktiki əhəmiyyəti.** Aparılmış tədqiqatın nəticəsi İndoneziyanın müasir demoqrafik vəziyyətinin və demoqrafik siyasətinin ümumi sosial-iqtisadi inkişafa təsirini müəyyən edəcəkdir ki, bu da gələcəkdə ali məktəblərdə İndoneziya ilə bağlı mühazirələrin hazırlanmasında istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya işinin materialları əsasında 2 məqalə nəşr olunmuşdur:

1. İndoneziyanin demoqrafik problemləri // "Regionlarda Ali təhsil: realliqlar və perspektivlər" Beynəlxalq Elmi Konfransı. Quba, 25-26 noyabr 2021, s. 183-185.
2. İndoneziya Respublikasında əhalinin etnik və dini tərkibinin demoqrafik inkişafa təsiri // Gənc tədqiqatçıların elmi əsərləri, 2022 №1.

**Dissertasiyanın strukturu.** Magistr dissertasiyası giriş, iki fəsil, altı paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısı, 3 cədvəl, 6 şəkil, o cümlədən 2 xəritədən ibarətdir.

# I FƏSİL. İNDONEZİYANIN DEMOQRAFİK REALLIQLARI

## 1.1. Demoqrafik vəziyyətin formalaşmasına təsir göstərən amillər

Hər hansı ərazi əhali qrupunun səciyyələndirilməsi həmişə əhalinin ümumi sayı və onun dinamikası, yəni vaxt çərçivəsində dəyişməsi ilə müəyyən edilir. Əhalinin say dəyişməsi həm təbii hərəkət, yaxud əhalinin təkrar istehsalı (yəni, doğumun və ölümün nisbətindən) nəticəsində baş verir, həm də əhalinin ərazi bölgüsündən, onun miqrasiyasından asılıdır. Əhalinin sayını və tərkibini dəyişdirən bütün bu proseslər bəzən, bütövlükdə demoqrafik proseslər adlanır [4, s. 20].

Dünyanın bütün ölkələrində demoqrafik vəziyyətin formalaşmasına, ölkənin iqtisadi-coğrafi mövqeyi, onun təbii şəraiti və təbii ehtiyatları, onların yayılması, ərazinin böyüklüyü, ölkə əhalisinin milli, dini, etnik quruluşu və s. amillər təsir göstərir. Bu baxımdan, demoqrafik vəziyyət əhali istehsalı və bütün digər ictimai proses və hadisələrin subyektini təşkil edir.

Cəmiyyətin əsas məhsuldar qüvvəsi olan insan bütün ictimai sərvətlərin yaradıcısıdır, nəticədə istehsal qüvvələrinin müəyyən inkişaf səviyyəsində insanların, xüsusən də əmək qabiliyyətli əhalinin sayı onun inkişafına təsir göstərən amildir, gələcəkdə isə iqtisadi inkişaf üçün imkanlar yaradır. Beləliklə, sosial şəraitin həlledici təsiri altında inkişaf edən əhalinin vəziyyəti öz növbəsində cəmiyyətin inkişafına təsir edən, onu ləngidən və ya sürətləndirən amildir. Demoqrafik vəziyyətin praktiki vəzifələri isə aşağıdakılardır:

- demoqrafik proseslərin (təbii artım, ölüm, nikah, boşanma, miqrasiya) meyllərinin öyrənilməsi;
- gələcəkdə cəmiyyətin demoqrafik inkişafına təsir edən amillərin öyrənilməsi;
- demoqrafik proqnozların işlənib hazırlanması;
- effektiv demoqrafik siyasət tədbirlərinin işlənib hazırlanması.

Demoqrafiya elə bir elm sahəsidir ki, elmi biliklərin obyekti insanlar, əhali, subyekti isə əhalinin təkrar istehsalı qanunlarıdır. Dar anlamda əhalinin çoxalması yalnız əhalinin təbii hərəkəti proseslərini, yəni yalnız doğum, ölüm, onlarla əlaqəli nikah və boşanmaları əhatə edir. Əhalinin çoxalmasına geniş mənada miqrasiya (əhalinin sayı və tərkibini dəyişən proses) məsələləri də daxildir.

Demoqrafiya əhalinin çoxalması proseslərinə, o cümlədən onların sosial şəraitdə məhsuldarlıq və ölüm proseslərinə, nikah və nikahın dayandırılması proseslərinə, habelə ailənin demoqrafik funksiyalarına, nikahın, ailənin və s. əhalinin demoqrafik strukturları, əhalinin sayı və tərkibinin dəyişmə meyllərinin müəyyən edilməsi, demoqrafik proseslərin və strukturların əlaqəsinin müəyyən edilməsi və demoqrafik proqnozların tərtib edilməsidir. Eyni zamanda, əhalinin təbii hərəkət qanunauyğunluqlarının müəyyən edilməsi demoqrafik tədqiqatların əsas vəzifəsidir. Məhz bu baxımdan, demoqrafik yönümlü tədqiqatların aparılması olduqca vacibdir. Qarşımıza qoyduğumuz məqsəddən irəli gələrək İndoneziya Respublikasının demoqrafik vəziyyətinin təhlili həm siyasi, həm iqtisadi, həm də sosial baxımdan olduqca vacibdir. Bunun üçün biz ilk öncə ölkənin yerləşdiyi iqtisadi-coğrafi mövqeyini təhlil etməyə çalışmışıq.

İndoneziya Respublikasının ərazisi 6 dərəcə şimal en dairəsindən 11 dərəcə cənub en dairəsinə, 95 dərəcə ilə 141 dərəcə şərq uzunluğu arasında yerləşir. İndoneziya arxipelaqı (Cənub-Şərqi Asiyada, Malay arxipelaqının adalarında və Yeni Qvineya adasının bir hissəsində) Asiya ilə Avstraliya arasında yerləşir. Şimalda Cənubi Çin dənizi, şimalda və şərqdə Sakit okean, cənub və qərbdə Hind okeanı ilə əhatələnmişdir. İndoneziyada 5 böyük ada var: qərbdə Sumatra, cənubda Yava, Kalimantan ekvatorun üstündə, “K” hərfinə bənzəyən Sulavesi və şərqdə Papua Yeni Qvineya ilə həmsərhəd olan Papua. İndoneziyada ümumilikdə 399 rayon və 98 bələdiyyə, 150-dən çox etnik birliklər var [42].

Yer kürəsinin ən böyük ada dövləti olan İndoneziya Böyük Zond adalarında (Kalimantan (şimalını çıxmaqla), Sumatra, Yava, Sulavesi, Madur və s.), Kiçik Zond adalarında (Timor, Flores, Sumbava, Sumba, Bali və s.), Moluk adalarında (Halmahera, Seram, Buru, Ambon və s.), Yeni Qvineya adasının qərb hissəsində

yerləşir. Qərbdən-şərqə 5 min km, şimaldan-cənuba isə 2 min km məsafədə uzanan İndoneziya Papua-Yeni Qvineya (820 km), Şərqi Timor (228 km) və Malayziya (1782 km) ilə quru sərhədlərə malikdir [29].

İndoneziya Respublikasının Paytaxtı Yava adasında Cakarta şəhəridir. İndoneziya iki okean – Hind və Sakit okean suları ilə əhatələnmiş və dünyanın ən böyük ada dövlətidir (şəkil 1.1.). Sahəsi 1,9 mln km$^2$-dən çoxdur və bura 17508 ada daxildir. Bu adaların təxminən 6000-də əhali məskunlaşmışdır [27, s. 16]. İndoneziyanın bütün ərazisi adalardan ibarətdir. Bu adaların əksəriyyəti vulkanik mənşəlidir. Adaların daxili bölgələri ən çox dağlıq, sahilləri ovalıqlardan ibarətdir.




Şəkil 1.1. İndoneziyanın xəritəsi

İndoneziyanın ən yüksək nöqtəsi Punchak Jaya dağıdır (4884 m). İndoneziyada adaların 76-sı aktiv və ya yaxın keçmişdə aktiv olan vulkanik adalardır. Vulkanik adalar aktivlik sayına görə dünyada birinci yerdədir. Ən yüksək vulkanik aktivlik Yava, Sumatra, Sunda, Halmahera, Sulavesi, Sangir adalarında və Banda dənizində müşahidə olunur. Vulkanlardan başqa İndoneziyada digər təhlükəli və fəlakət yarada bilən təbii fəlakətlərə də rast gəlmək mümkündür. Bunlara – daşqınlar, quraqlıq, zəlzələlər, sunamilər, meşə yanğınları və s. aiddir.

İndoneziyanın iqlimi tropik, isti və rütubətli, yüksək dağlıq ərazilərdə bir qədər mülayimdir. İndoneziyanın ekvator boyunca mövqeyi yüksək və nisbətən vahid

temperatur gətirir. Bundan əlavə, Asiya və Avstraliya quru hava kütlələri arasında yerləşməsi də İndoneziyanı musson fırtınalarına məruz qoyur. Orta illik temperatur 20-30°C arasında dəyişir, lakin temperatur 38°C-ə qədər yüksələ və ən aşağı 18°C-ə düşə bilər.

Cənub-Şərqi Asiya regionunda əhalisinin sayına və ərazisinin böyüklüyünə görə seçilən İndoneziyada "Qaynar nöqtələr" də vardır. İndoneziyada XX əsrin 60-cı illərinin əvvəllərindən öz müstəqilliyi uğrunda Papua əyalətinin (Yeni Qvineya adasının qərb hissəsi) papuas xalqları mübarizə aparırlar və bu mübarizə silahlı toqquşmaya gətirib çıxartmışdır. XX əsrin 90-cı illərinin sonunda daha bir münaqişə ocağı Sumatra adasında yaranır. Burada əhalisinin sayı 4,5 mln. nəfər olan Açe əyaləti müstəqil islam dövləti yaratmaq istəyir. Həmçinin bu illərdə Kalimantan adasında etnik münaqişə başlayır, Moluk adalarında isə (bu adalar Sulavesi və Yeni Qvineya arasında şimaldan-cənuba doğru 1300 km məsafədə uzanır) müsəlmanlarla xristianlar arasında ölümlə nəticələnən müharibə olur. Bu qeyd olunan münaqişə və müharibənin səbəbi yalnız dini fərqlilik deyil, burada həmçinin siyasi və iqtisadi amillər də böyük rol oynayır. Belə ki, bir vaxtlar Portuqaliya, sonra Niderlanda məxsus olan zəngin bu adalar hal-hazırda İndoneziyanın ən kasıb rayonlarındandır.

Cənub-Şərqi Asiyada dünyanı maraqlandıran və narahat edən bir problem Şərqi Timor adaları ilə bağlıdır. Kiçik Zond adaları qrupuna daxil olan Şərqi Timora Portuqaliya 1974-cü ildə müstəqillik verir və 1975-ci ildə keçmiş kaloniya ərazisi olan Şərqi Timoru tərk edir. Elə həmin il indoneziyalılar ilə ada sakinləri arasında vətəndaş müharibəsi baş verir, nəticədə "İnqilab cəbhəsi" qələbənin bayram edilməsi olaraq Şərqi Timorun müstəqilliyini elan edir. Lakin səhəri gün İndoneziya hökuməti "İndoneziyanın tərkibinə Şərqi Timorun inteqrasiyası" adlı deklarasiya qəbul edir, adaya silahlı qüvvələr göndərir və Şərqi Timor İndoneziyanın 27-ci əyaləti sayılır. 1999-cu ilə qədər adada müxtəlif münaqişələr zamanı 200 mindən çox əhali həlak olur. 1999-cu ildə İndoneziya hökuməti adada referendum keçirməyə icazə verir və bu referendumda çoxsayda timorlular müstəqillik üçün səs verdilər. Adada sabitlik yaratmaq məqsədi ilə BMT-nin sülhməramlı qüvvələri buraya yeridilir və idarəetmə

BMT-nin əlinə keçir. Əvvəl "keçid" hakimiyyət, 2002-ci ildə isə Şərqi Timor dövləti yaranır.

Cənub-Şərqi Asiyanı ümumilikdə demoqrafik inkişaf müşahidə edilməyən region kimi ayırırlar. Demoqrafik inkişaf baxımından Cənub-Şərqi Asiyada 2 subregion ayrılır: zəif inkişaf edən və sabit ölkələr. İndoneziya demoqrafik inkişafda stabil vəziyyət müşahidə edilən ölkələr qrupuna aiddir. Lakin proqnozda ölkə üçün demoqrafik vəziyyət qənaətbəxşdir. Belə ki, BMT-nin hazırladığı dünya ölkələri üzrə əhalinin sayının dinamikası bülletenində İndoneziyada stabilliyin qorunacacağı öz əksini tapmışdır. Cənub-Şərqi Asiya regionu üçün xarakterik olan digər bir məsələ etnik tərkibdir. Etnik tərkibə görə Cənub-Şərqi Asiyanı 3 qrupa ayırmaq olar: əsas xalqın 70-95% təşkil etdiyi (Vyetnam, Kambodca, Myanma, Sinqapur); əsas xalqın 50-70% təşkil etdiyi (Tailand, Bruney, Laos) və əsas xalq anlayışı olmayan ölkələr (İndoneziya, Malayziya, Filippin) [29].

Cənub-Şərqi Asiya regionunda sosial-iqtisadi göstəricilərdə də İndoneziya özünəməxsus mövqeyə malikdir. İndoneziya məşğul əhalinin sayına görə, dövlətin paytaxtı (Cakarta şəhəri) ən böyük əhaliyə malik şəhərlər içərisində, ən az həkimə malik olan dünya ölkələrindən biri kimi seçilir. Cənub-Şərqi Asiya regionunun iqtisadi inkişafı durmadan artır. Proqnoza görə XXI əsrin ortalarına qədər Asiya-Sakit okean sahili region yüksək templə inkişaf edəcək və dünyanın bütün nəhəng iqtisadiyyatları burada cəmlənəcəkdir. ÜDM-nin inkişafı baxımından Cənub-Şərqi Asiya regionunun 2 ölkəsinin (İndoneziya və Tailand) imkanları dünya mütəxəssisləri tərəfindən yüksək qiymətləndirilir [20].

Hər bir ərazidə əhalinin səciyyələndirilməsinə burada yaşayan insanların ümumi sayından başlanılmalıdır. Əhalinin siyahıyaalınması və əhalinin cari inzibati qeydiyyatının materialları (adambaşına doğum və ölümünün, nikah və boşanmaların, yaşayış yerlərinin qeydiyyatı), habelə əhalinin vaxtaşırı ümumi siyahıya alınmasının materialları (sayı, tərkibi, yerləşməsi) ölkə əhalisinin dəqiq say göstəricilərinin başlıca mənbələridir. Əhalinin sayının müəyyənləşdirilməsinə maraq qədim zamanlardan yaranmışdır. Dövlətin hərbi və vergi siyasəti insanların sayı, cins və yaşı

barədə dəqiq məlumat olmasını tələb edirdi ki, bu da ilk siyahıyaalınmanın aparılmasına səbəb olmuşdur [4, s. 18].

Əhalinin siyahıyaalınması əhali haqqında əsas məlumat mənbələrindən biri olmaqla, əhalinin sayı və tərkibinə dair göstəricilərin yığılması, emalı və təhlilini əhatə edən elmi-təşkili prosesdir. BMT-nin tövsiyyələrinə görə əhalinin siyahıyaalınması müəyyən zaman çərçivəsində ölkədə və ya ölkənin məhdud hissəsində yaşayan bütün əhalinin demoqrafik, iqtisadi və sosial göstəricilərinin yığılması, təhlili və nəşr edilməsi olmalıdır. Əhalinin siyahıyaalınması əhalinin sayı və demoqrafik göstəriciləri (cins-yaş və ailə tərkibi), eləcə də sosial-iqtisadi parametrlər (təhsil, məşğulluq) haqqında məlumat almağa imkan verir. Həmçinin, dövlət üçün maraqlı olan bəzi məsələlər (məşğulluq və işsizlik göstəriciləri, yaşayış şəraitinin səviyyəsi, əlillərin vəziyyəti) də siyahıyaalınmaya əlavə edilə bilər [19].

Nəticələrindən əhalinin sayı və strukturunun perspektiv qiymətləndirilməsi və proqnoz üçün istifadə edildiyi əhalinin siyahıyaalınmasının vəzifələrinə aşağıdakılar aiddir:

- siyahıyaalınmanın dövrləri arasında əhalidə baş verən dəyişikliklər haqqında informasiyanın əldə edilməsi;
- perspektiv hesablamalar üçün bazanın hazırlanması.

İndoneziya əhalisini indoneziyalılar adlandırırlar. İndoneziyalıların sayı 2017-ci ilin statistik məlumatına görə 263 mln nəfərdir. 2007-2017-ci illər arasında İndoneziyanın əhalisi orta hesabla 31 mln nəfər artmışdır. Ən yüksək əhali artımı 2010-cu ildə 3,18 mln, ən az artım isə 2017-ci ildə 2,87 mln nəfər qeydə alınmışdır (şəkil 1.2.). Bu dövrdə İndoneziyada əhalinin orta illik artım tempi 1,14% təşkil etmişdir. Əhalinin çox hissəsini yavalılar (40,1%), sundlar (15,5%), malaylar (3,7%) təşkil edir. Bundan əlavə, çoxlu yerli dillər var və xarici dillər arasında ingilis və holland dilləri geniş yayılmışdır. İndoneziyada ümumilikdə 700-dən çox dildə danışılır. Rəsmi dövlət dili Malay dilinin dəyişdirilmiş forması olan İndoneziya (Bahasa Indonesia) dilidir [24]. 2020-ci ildə İndoneziyada əhalinin sayı 270,2 mln nəfər qeydə alınmışdır. Əhali qaçqınlar istisna olmaqla, hüquqi statusundan (vətəndaşlığından və s.) asılı olmayaraq ölkə ərazisində faktiki yaşayan əhalidir.




Şəkil 1.2. İndoneziyada əhalinin artım dinamikası

Biz bilirik ki, demoqrafik proseslər haqqında məlumatlar demoqrafik hadisələrin cari qeydiyyatı vasitəsilə əldə edilir. Həyati vacib hadisələrin – doğumlar, ölümlər, nikahlar və boşanmalar haqqında məlumatların toplanmasıdır. Belə uçotun əsas məqsədi əhalinin sayı və tərkibi, demoqrafik proseslərin əsas xüsusiyyətləri haqqında operativ məlumat əldə etməkdir. Demoqrafik hadisələr vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı orqanlarında qeydə alınır. Yaş və cins mühüm demoqrafik dəyişənlərdir və statistikada, siyahıyaalmalarda və sorğularda demoqrafik təsnifatın əsasını təşkil edir. Onlar həmçinin ölüm və məhsuldarlığın öyrənilməsində mühüm göstəricilərdir.

Əhalinin təbii hərəkətinə daxil olan doğum və ölümə bir çox amillər təsir göstərir. Doğuma təsir edən amilləri çoxlu sayda tədqiqatçılar araşdırdığından, bu sahədə ümumi yanaşma yoxdur. Belə ki, doğuma təbii-bioloji, demoqrafik, sosial-iqtisadi, mədəni və psixoloji amillər təsir edir. Əhalinin təbii hərəkətinin tərkib hissələrindən biri olan ölümü isə təbii-iqlim, genetik, sosial-iqtisadi, mədəni, siyasi və digər amillər şərtləndirir.

İndoneziyada 2010-2019-cu illərdə əhalinin hər 1000 nəfərinə doğum 2,7; ölüm 0,2; körpə ölümü 7,8; təbii artım isə 2,5 nəfər azalmışdır. Bəzi dünya ölkələrində ölümün azalma dinamikası müşahidə edilir ki, həmin dövlətlərdən biri də İndoneziyadır. Belə ki, İndoneziyada ölüm göstəricisi 1960-2019-cu illərdə 23%-dən 6%-ə qədər aşağı düşmüşdür. Həmçinin, körpə ölümü göstəricisini aşağı salan

ölkələrdən biri də İndoneziyadır. İndoneziyada 1960-2019-cu illərdə körpə ölümü göstəricisi hər 1000 nəfərə 150-dən 20-yə qədər enmişdir.

Ölüm səviyyəsinə təsir göstərən amillərdən biri də səhiyyə sistemidir. ÜDM-nin səhiyyəyə dövlət xərclərinin göstəricisi 2010-2019-cu illərdə 0,6% artsa da, tibbi xidmətlərlə təminedilmə səviyyəsinə görə İndoneziya dünya dövlətlərindən geri qalır (əhalinin hər 10000 nəfərinə 4 həkim).

Əhalinin strukturu isə bir ölkənin və ya regionun sakinlərinin müəyyən demoqrafik xüsusiyyətlərə görə bölgüsüdür. Demoqrafiyada ən çox əhali qruplarını ayırd etmək üçün aşağıdakı əsaslardan istifadə olunur:

- təsvir xüsusiyyətləri: cins, yaş, irq, milliyyət;
- sosial xüsusiyyətlər: ailə vəziyyəti, təhsil səviyyəsi, vətəndaşlığı, ana dili;
- iqtisadi xüsusiyyətlər: məşğulluq, peşə;
- miqrasiya xüsusiyyətləri: doğulduğu yer, müəyyən yaşayış məntəqəsində qalma müddəti.

Əhalinin əsas demoqrafik strukturları cins və yaş tərkibidir. Əhalinin cins strukturu əhalinin cinsinə görə ayrılmasıdır və ona aşağıdakı amillər təsir göstərir:

- sağ doğulanlar arasında oğlan və qızların sayının nisbəti;
- müxtəlif yaşlarda kişi və qadınların ölümü;
- miqrasiya axınlarında gender fərqləri.

Yaş və cins strukturu əhalinin ən mühüm xarakteristikalarından biri hesab olunur. Bir sıra tədqiqatçılar hesab edirlər ki, ölkələrin və regionların əhalisinin yaş və cins tərkibinin öyrənilməsi həm iqtisadi, həm də sosial baxımdan böyük əhəmiyyət kəsb edir. Çünki əhalinin yaş və cins tərkibi haqqında məlumatlar əmək ehtiyatlarının, uşaqların, təqayüdçülərin sayının hesablanmasında olduqca zəruridir.

Cins tərkibi əsas demoqrafik əlamətlərdən biri kimi əhalinin siyahıyaalınmasında qeyd edilir və əhalinin təbii hərəkət göstəricilərində (doğum, ölüm, nikah, boşanma) böyük əhəmiyyət daşıyır. Cinsi tərkib bu və ya digər səviyyədə demoqrafik proseslərin müxtəlifliyi və intensivliyini müəyyənləşdirir. Belə ki, inkişaf etmiş əksər ölkələrdə qadınların ölüm səviyyəsi kişilərlə müqayisədə

aşağıdır ki, bu da qadınların daha uzunömürlü olmasını müəyyən edir. Cinsi tərkib kimi, yaş strukturu da əsas demoqrafik göstərici hesab olunur. Hər hansı bir dövlətdə əhalinin cins və yaş tərkibinin göstəricisi iqtisadiyyatın və ictimai həyatın bütün sferalarında böyük əhəmiyyətə malikdir.

İndoneziyada əhalinin orta yaşı kişilər arasında 28,7, qadınlar arasında isə 29,8-dir. Əhalinin yaş strukturu şəkil 1.3-də göstərilmişdir. Qeyd edim ki, əhalinin artım tempi 0,95%, doğum səviyyəsi hər 1000 nəfərə 17,04, ölüm nisbəti isə 6,34 nəfər təşkil edir. İlk övladını dünyaya gətirən ananın orta yaşı 22,8-dir. Kişilər üçün orta ömür uzunluğu 69,6 il, qadınlar üçün 74,9 ildir. Urbanizasiya səviyyəsi kifayət qədər yüksəkdir (53%), ən böyük şəhəri Cakartadır. Cakarta şəhərində 10,176 mln nəfər əhali yaşayır [37].




Şəkil 1.3. İndoneziyada əhalinin yaş strukturu

Yaş-cins piramidalarının təhlili aşağıdakılara imkan verir:

– cari demoqrafik vəziyyəti xarakterizə etmək;
– gələcəkdə demoqrafik vəziyyəti proqnozlaşdırmaq;
– məhsuldarlıq və ölüm proseslərinin əhalinin yaş tərkibinə təsirini müəyyən etmək;
– müxtəlif ərazilərin əhali strukturlarını müqayisə etmək.

Əhali piramidası İndoneziya əhalisinin yaş strukturunu təsvir edir. Əhali piramidasının dar üstü və keçmişdə yüksək məhsuldarlığa malik ölkələrə xas nümunəni əks etdirən geniş bazası var. Bu tip yaş strukturu ölkə əhalisinin artımı üçün daxili sürətə malikdir. Gənc əhali nəhayət reproduktiv yaşa çatdıqda, bir neçə il ərzində yüksək əhali artımı olacaqdır.

Əhali piramidasının öyrənilməsinin əsas üstünlüklərindən biri də, ev təsərrüfatları başçısının cinsinə görə tərkibi və ev təsərrüfatının ölçüsünə dair məlumatların əldə edilməsidir. Çünki onlar ev təsərrüfatının rifahı aspektləri ilə bağlıdır. Məsələn, qadınların başçılıq etdiyi ev təsərrüfatları, adətən, kişilərin başçılıq etdiyi ev təsərrüfatlarından daha yoxsuldur. Ev təsərrüfatlarının böyük olduğu yerlərdə, ümumiyyətlə, daha çox izdiham olur ki, bu da adətən daha az əlverişli sağlamlıq şəraiti və iqtisadi çətinliklərlə əlaqələndirilir.

15-49 yaşlı qadınların cari ailə vəziyyəti və yaşa görə % bölgüsünə baxsaq görərik ki, qadınların 22%-i heç vaxt evlənməyib, 73%-i hazırda evlidir, 3%-i boşanmış, 2%-i isə dul qalmışdır. Ümumilikdə, iki yeni kateqoriyaya (birlikdə yaşayan və ayrılmış) çox az sayda qadın daxildir ki, onların hər biri 15-49 yaşlı qadınların 1%-dən azdır. Heç vaxt evlənməmiş qadınların faizi 15-19 yaşlı qadınlar arasında 87%-dən, 20-24 yaşlı qadınlar arasında 38%-ə qədər əhəmiyyətli dərəcədə azalır. 20-24 yaşlı qadınların 60%-i və 25-29 yaşlı qadınların 86%-i ilə müqayisədə 20 yaşınadək qadınların 13%-i hazırda birlikdədir (hazırda evlidir və ya birlikdə yaşayır). Hazırda birlikdə olan qadınların ən yüksək nisbəti 35-39 yaş qrupunda (92%) müşahidə olunur [42, s. 65].

Yüksək doğum səviyyəsi, ölümün azalması və bununla əlaqədar olaraq əhalinin artımı əmək ehtiyatlarının çoxalmasına və istehsalın miqyasının genişlənməsinə səbəb ola bilər. Əhalinin strukturunda gənc yaşlıların xüsusi çəkisinin artması ölkənin əmək ehtiyatlarının keyfiyyətinin və rəqabət qabiliyyətinin çoxalmasına da səbəb ola bilər. Artan əhalinin həyat səviyyəsi iqtisadi investisiyaların genişlənməsi hesabına təmin edilir. Əhali təkcə sayca deyil, həm də yaş və cins strukturu, müxtəlif yaş və cinsdən olan insanları saxlamaq üçün tələb olunan xərclər dəyişir. Yaşlılara dəstək olmaqdansa, gənclərə dəstək olmaq daha çox lazımdır. Demoqrafik amillər

məşğulluğa, istehsala, tələbata, gəlir və istehlaka, habelə əhalinin həyat səviyyəsinə və keyfiyyətinə təsir göstərir.

## 1.2. Əhalinin etnik və dini tərkibinin demoqrafik inkişafa təsiri

İndoneziya qədim sivilizasiya ocaqlarından biridir. Eramızdan əvvəl 1-ci minilliyin ortalarında İndoneziyanın müasir ərazisində Hind-Çin yarımadasından emiqrantlar dövlət yaradırlar. IV-VII əsrlərdə Yava adasına gələn hind knyazları öz dövlətlərini yaradır və hindi mədəniyyətini yayırlar. XIII-XV əsrlərdə Macapahit imperiyası bütün İndoneziya ərazisini öz təsiri altına alır. İndoneziyaya XIII əsrdə İslam dini daxil olur və hakim rol oynamağa başlayır. XV əsrdə İndoneziyada sultanlıqlar yaranmağa başlayır. Portuqaliyalılar adalara daxil olur, lakin 1570-ci ildə sultan Ternata öldürüldükdən sonra onlar İndoneziyadan qovulur. İndoneziyaya maraq göstərən Avropa ölkələrindən Hollandiya onu müstəmləkəyə çevirə bilir. Hollandların hakimiyyəti 350 il davam edir. Bu dövr ərzində Cakarta şəhəri adada müstəmləkə ərazisinin paytaxtı olduğundan, müstəmləkə general-qubernatorunun iqamətgahı da burada yerləşirdi. 1945-ci il avqustun 17-də Cakartada İndoneziyanın müstəqilliyi elan edildi [2, s. 248].

Dünya dövlətlərini əhalisinin etnik tərkibinə görə 5 qrupa ayırırlar: birmillətli; bir millətin üstün olmaqla, milli azlıqların sayı ilə seçilən; ikimillətli; yekcins olmaqla, daha mürəkkəb etnik tərkibli; çoxmillətli və etnik tərkibində müxtəlif xalqların olduğu ölkələr [19]. Çoxmillətli və etnik tərkibində müxtəlif xalqların olduğu 5-ci qrupa aid edilən dövlətlərdən biri də İndoneziyadır. Bu qrup ölkələrdə son illərdə etnik tərkib arasında münaqişələr kəskinləşmişdir.

Çoxmillətli dövlət kimi İndoneziya 3 qrupa ayrılır: yavalı, sund və madurları əhatə edən birinci, papuas xalqını əhatə edən ikinci, milli azlıqlardan (çinli, ərəb, hindli və s.) ibarət üçüncü qrup. Avstroneziya dil ailəsinə daxil olan İndoneziya etnoslarının əksəriyyəti bir-biri ilə qohumluq əlaqəsinə malikdirlər.

İndoneziyanın ərazisində təbii və sosial amillərə görə bir-birindən təcrid olunmuş 300-dən çox müxtəlif etnik qrup yaşayır. Bu baxımdan, İndoneziya arxipelaqını tədqiq edən hollandiyalı Zvaan demişdir ki, İndoneziya dünyanın ən maraqlı və çaşdırıcı bölgələrindən biridir [50]. Bunu biz, İndoneziyaya həsr olunmuş bir sıra elmi monoqrafiya və dərsliklərdə təsvir olunmuş etnik-mədəni xüsusiyyətlərdə görə bilərik [48]. Çünki adalarda yaşayan əhalinin sistematik tədqiqini hələ də aparmamışdır. Bu adaların sakinlərinin fiziki xüsusiyyətlərinə dair ənənəvi antropometrik üsulla toplanmış morfoloji məlumatlar demək olar ki, mövcud deyildir.

Hazırda İndoneziya ərazisinin üstünlük təşkil edən əhalisi Cənubi Asiyanın kiçik irqidir. Bununla belə, epikantusun olması, dəri rəngi, saç forması kimi bir çox simvolda monqoloid tiplərinə xas olan paylanmadan ekvatorial olanlara qədər klinik dəyişkənlik mövcuddur (şəkil 1.4.).



Şəkil 1.4. İndoneziyanın müxtəlif adalarının əhalisi: Sulavesi, Sumatra, Siau, Sangir

Qeyd edim ki, İndoneziya xalqlarını irqi cəhətdən təsnif etməyə cəhd edən ilk tədqiqatçılar XIX əsrin sonunda arxipelaqı ziyarət edən isveçrəli alimlər Fritz Sarazin və Paul Sarazin olmuşdur. Onlar cənub monqoloidlərinin sonradan məşhurlaşan Malay arxipelaqı ərazisinə iki miqrasiya dalğası haqqında fərziyyə irəli sürmüşdülər.

Onlar hesab edirdilər ki, birinci dalğanın nəsli Proto-Malaylar, ikinci dalğanın nəsli isə Deuteromalaylar adlanır [35]. Göründüyü kimi, əsasən bölgənin ucqar ərazilərində yaşayan Rotomalaylar şimaldan yeni gələn monqoloid qruplarla qarışmağa daha az meylli idilər. Digər populyasiyalarla daha çox təmas imkanlarına malik olan Deuteromalaylar getdikcə daha çox monqoloid xüsusiyyətlər qazandılar. Beləliklə, monqoloid fiziki xüsusiyyətlər kompleksi şimal-qərbdə üstünlük təşkil edir və cənub-şərqə, Melaneziyaya doğru tədricən zəifləyir.

Müasir İndoneziya əhalisinin müqayisəli tədqiqindən sonra rus alimi Qlinka belə nəticəyə gəldi ki, İndoneziya regionunun ərazisində üç əsas antropoloji tipə rast gəlinir: proto-malay və deuteromalaylardan əlavə, dayakları ayrıca ayırmaq olar [40]. Proto-Malaylar əsasən dolichocephalic olub, aşağı üz boyu və orta burun enlidir. Həm də adətən nisbətən tünd dəri tonuna və dalğalı saçlara malikdirlər. Deuteromalaylar daha tez-tez braxisefal, nisbətən dar burunlu olur. Dayaklar həm dolicho, həm də brakisefal ola bilər, çox aşağı üz hündürlüyünə və çox geniş buruna malikdir. Həm Dayak, həm də deuteromalaylar nisbətən açıq dəri tonlarına və düz saçlara malikdir [39]. Qlinka tərəfindən antropoloji tiplərin mümkün paylanmasına əsasən Şimali Sulavesi populyasiyaları, deuteromalayalar antropoloji tipinin nümayəndələri aid edilir.

Kiçik Sunda və Moluk əhalisi növləri son dərəcə yüksək dəyişkənliyi ilə xarakterizə olunur, çünki hər iki arxipelaq Cənubi Asiya antropoloji tiplərinin və böyük ekvator irqinin şərq gövdəsinə aid olan melaneziyalıların məskunlaşma zonalarının qovşağında yerləşir.

Bəzi tədqiqatçılar yaponlarla və müxtəlif avstropoid qrupları ilə metistləşməyə məruz qalmış Şərqi İndoneziya sakinlərini monqoloidlərə daxil etmir, böyük monqoloid irqinin Asiya qolu və böyük avstroloid irqi arasında qarışıq və keçid formaları sayılır. Qeyd edilməlidir ki, Sakit okean monqoloidləri ilə Cənubi Asiya qrupu arasındakı sərhəd böyük irqlər, onların qarışıq və keçid formaları arasındakı sərhədlərdən xeyli qeyri-müəyyəndir [4, s. 110].

Apardığımız araşdırmalar nəticəsində deyə bilərik ki, İndoneziya ərazisindəki böyük ekvatorial irqi, Melaneziya növünə əlavə olaraq, Veddoid ilə də təmsil olunur,

lakin daha az yayğındır. Mümkündür ki, bəzi qruplar səhvən Veddoidlər kimi təsnif edilə bilər. Antropoloji cəhətdən melaneziyalılara çox yaxın olsalar da, papualılar bəzən ayrıca bir qrup kimi seçilirlər (şəkil 1.5.).



Şəkil 1.5. İndoneziya əhalisi, papuaslar

İndoneziyada etnik icmalar eyni zamanda inkişafın müxtəlif mərhələlərində, etnik özünüdərkin müxtəlif səviyyələrində, yəni bütün etnik miqyasda: tayfalar, qəbilə qrupları, millətlər və qohum millətlər qrupları, millətlər - monogen, eləcə də heterojen kimi yaşayırlar.

Dünyada azsaylı etnosların yaşadığı ölkələrdən biri də İndoneziyadır. İndoneziyada azsaylı xalq kimi "toala" yaşayır. Toala xalqının ümumi sayı 1000 nəfərə yaxındır [20].

Müasir İndoneziyanın etno-milli inkişafının xüsusiyyətləri çoxmillətlilik və bir sıra digər mühüm amillərlə, həm inteqrasiya edən, həm də parçalayan xüsusiyyətlərlə müəyyən edilir. Etnik icmaların çoxsəviyyəli təbiəti, yəni etnik plüralizm burada istər-istəməz iqtisadi və sosial həyat formalarının müxtəlifliyi ilə birləşir və bu iqtisadi plüralizm tərəfindən dəstəklənir. Bir sıra İndoneziya dövlət xadimlərinin fikrincə, dövlət quruculuğu bir neçə yolla əldə edilə bilər: ya etnik sərhədləri dağıtmaqla və bütün etnik qrupları, onların mədəniyyətlərini ümumi bir tama birləşdirməklə, ya da "milli iradəni" yaymaqla. onu siyasi liderliklə eyniləşdirməkdə

və daimi siyasi mübarizə və kütləvi ruh yüksəkliyinin inkişaf etdirilməsinin köməyi ilə. Hər halda, sözün birbaşa mənasında "milli inkişaf" məsələləri dövlət quruculuğu məsələlərinə çevrilməlidir.

İndoneziyada əhalinin etnik tərkibinin təhlili ölkədaxili əyalətlər - Mərkəzi Sulavesi, Şərqi Yava və Cənub-Şərqi Sulavesi üzrə aparılmışdır. Belə təhlil əyalət daxilində yayılan etnos və subetnosların araşdırılmasını daha dolğun edir.

Mərkəzi Sulavesi əyaləti – Sulavesi adasının 46%-ni əhatə etməklə, həmçinin onun tərkibinə irili-xırdalı 212 ada daxildir. Ekvatorun hər iki tərəfində yerləşən bu əyalətdə 2,9 mln nəfər əhali yaşayır. 68 min km$^2$ sahəyə malik Mərkəzi Sulavesi əyaləti müxtəlif etnik tərkibə malik inzibati ərazi vahidlərinə ayrılır:

- Bangey inzibati ərazi vahidi – loynanq (saluan), loon (balantak və andio), lobo (bangey, pelinq və lobobo), mamasa və taa etnosları;
- Bangey arxipelaqı inzibati ərazi vahidi – bangey etnosu;
- Buol inzibati ərazi vahidi – buol etnosu;
- Donqala inzibati ərazi vahidi – kaili etnosu;
- Morovali inzibati ərazi vahidi – mori və bunqku etnosu;
- Pariqi Mutonq inzibati ərazi vahidi – tomini və kaili etnosu;
- Poso inzibati ərazi vahidi – pamona, lore və kaili etnosu;
- Toco Una-una inzibati ərazi vahidi – baree etnosu;
- Toli-toli inzibati ərazi vahidi – toli-toli, dampelas, dondo və pendau etnosu;
- Siqi inzibati ərazi vahidi – kulavi və kaili etnosu;
- Palu inzibati ərazi vahidi – kaili, buq, toraca, mandar etnosu [38].

Mərkəzi Sulavesi əyalətinin əsas köklü etnosu kailidir. Kaili etnosunu əksər hallarda "Qərbi toraca", "toraca Palu", "toraca Pariqi-Kaili", "toraca Siqi" adlandırırlar. Hal-hazırda bu etnosun sayı 500 min nəfərdir. Kaili etnosunun tərkibinə çoxlu sayda subetnos daxil olduğundan, bu etnosun əsas dilinin müxtəlif dialektlərinin yaranması baş vermişdir. Kaili Yer kürəsində ilk yaşayan etnoslardan biri hesab edilir. Kaililərdə yaşlı əhaliyə tamamilə tabe olmaqla, güclü ailə ənənələri vardır. Ənənəvi tədbirlərin reallaşmasında böyük rol oynayan qohumluq əlaqələri möhkəmdir. Kailinin əsas subetnosu kaili ledo olmaqla, əsasən Palu şəhəri və onun

ətraflarında: Buromadu, Dolo, Maravola və Tavailidə yaşayırlar. Kaili unde subetnosu Palu şəhərində (Banava rayonu) cəmlənib. Kaili etnosu, həmçinin Mərkəzi Sulavesi əyalətindən kənarda – Şərqi Kalimantan və Yavada yaşayırlar.

Kailidən başqa Mərkəzi Sulavesi əyalətinin digər etnosu pamona sayılır. Pamona etnosu, məskunlaşma ərazisinə görə (Poso və Toco Una-una rayonları) əvvəllər "Şərqi toraca" və ya "toraca Poso-Toco" adlanırdı. Pamona etnosunun sayı 175 min nəfər olmaqla, 4 subetnosdan ibarətdir:

- Tomini körfəzi rayonunda yaşayan lalaleo, pau, poso və vana;
- Poso gölü ətrafında yaşayan pebeto, laqe, buyu, kadambuku, undae, payapi, lamusa, lonqken, puumboto, voto, bançea;
- Laa çayının vadisində və Poso gölündən şərqdə yaşayan palende, kalae, tanandoa, pada, pakambia, puumnana;
- Kalaena çayının yuxarı axarlarında və Poso gölündən cənubda yaşayan lampu, tavi, layvono, lembo [48].

Mərkəzi Sulavesi əyalətinin şərq hissəsində yaşayan əsas etnos bangey olmaqla, sayı 175 min nəfər təşkil edir. Bangey etnosu 2 subetnosa ayrılır: mian bangey və mian sea-sea. Əyalətin şərq hissəsində məskunlaşan etnoslardan biri də balantak etnosudur. Balantak etnosunun sayı 50 min nəfər olmaqla, 2 subetnosdan ibarətdir: tanoturan və dale-dale. Mərkəzi Sulavesi əyalətinin şərq hissəsində yaşayan digər bir etnos saluandır (100 min nəfər). Əyalətin şimal hissəsində məskunlaşan buol etnosunun sayı 180 min nəfər təşkil edir.

Mori etnosu 2 subetnosa ayrılır: yuxarı mori və aşağı mori. Yuxarı morilər Laa, Molio, Molonq Kuni və Ulu Voy çaylarının sahillərində, aşağı morilər isə Laa çayının aşağı axarlarında, həmçinin Votu və Moiki çaylarının sahillərində yaşayırlar. Mori etnosunun sayı 80 min nəfərdir. Tomini etnosu bir neçə subetnosa ayrılır: mutonq, dondo, boano, umalasa, balesanq, tinombo, patapa, dampelas, kasimbar, toli-toli və s. Tomini etnosunun sayı 120 min nəfər təşkil edir. Kulavi etnosu Lindu gölünün cənub hissəsində məskunlaşmaqla, 60 min nəfər saya malikdir. Əvvəllər kulavi etnosunu "Qərbi toraca" etnosuna aid edirdilər.

Əvvəllər “Şərqi toraca” etnosu kimi tanınan lore etnosu Poso rayonunda yayılmaqla, sayı 20 min nəfər təşkil edir. Lore etnosunun dili 2 dialektdən ibarətdir: napu (Şimali Lore rayonunda) və bada (Cənubi Lore rayonunda). Mərkəzi Sulavesi əyalətinin daxili dağlıq rayonlarında yaşayan etnoslardan biri də daa etnosudur. Bu etnos həm də Qərbi Sulavesi əyalətində yayılmışdır. Qavalise dağları rayonunda yerləşən Dombu kəndində daa etnosunun ənənəvi yaşayış yeri mövcuddur. Qeyd edək ki, yaşayış yerləri ağacda tikilmişdir. Dondo etnosunun sayı 25 min nəfər olmaqla, tialo dilində danışırlar.

Şərqi Yava əyaləti insanın ilk məskunlaşdığı ərazi kimi seçilir. Belə ki, 1936-cı ildə Mocokert rayonunda, Kendenq dağının yamacında, Perninq kəndinin yaxınlığında yaşı 1 mln il olan qədim insanın qalıqları tapılmışdır. Mocokert insanı Pitekantrop tipinə aiddir. Daha sonra Vilis dağları rayonunda, Çampurdarat kəndi yaxınlığında Vajakensis insanın qalıqları tapılmışdır ki, o da Homo Sapiens tipinə aiddir. Paçitan dağları rayonunda daşdan əmək vasitələri tapılmışdır ki, ondan da Erektus Pitekantropu istifadə etmişlər [35].

Şərqi Yava əyalətinin sahəsi 47,9 min $km^2$ olmaqla, ümumi ölkə ərazisinin 3%-ni əhatə edir. Əyalət əhalisinin 79%-ni yavalı, 18%-ni isə madurlar təşkil edir. Yava etnosu bir neçə subetnosa ayrılır ki, onlardan da biri yava-osinqdir. Bu subetnos Banyuvanqi inzibati ərazi vahidində cəmlənib. Madurlar, əhalisinin sayına görə İndoneziyada 3-cü etnos olmaqla, ölkənin ümumi əhalisinin 7%-ni təşkil edir. Madurlar əsasən Madur adası, həmçinin yaxın adalar – Kanqean və Masalembu, o cümlədən Yava adasında cəmlənib. Şərqi Yava əyalətində yaşayan subetnoslardan biri pendalunqan subetnosudur ki, o da yavalı və madurların qarışıq nikahlarından yaranmışlar. Əyalət ərazisində yaşayan və sayı çox da olmayan subetnoslardan biri bavean subetnosudur. Bu subetnos eyni adlı və sahəsi 200 $km^2$ olan adada cəmlənib.

Cənub-Şərqi Sulavesi əyalətinin etnik tərkibində buton, buqinez, tolak, muna və s. xalqlar fərqlənir. Əyalətin demək olar ki, bütün rayonlarında yaşayan buqinezləri “uqi” də adlandırırlar. Yayıldığı rayonlardan asılı olaraq buqinezlərin dili müxtəlif dialektlərdən ibarətdir. Butonlar əsasən Buton adası və bitişik kiçik adalarda yaşayır. Buton etnosu bir neçə subetnoslardan ibarətdir ki, onlardan da biri volio

subetnosudur. Cənub-Şərqi Sulavesi əyalətinin yerli etnoslarından biri də tolaklardır. Tolak etnosunu bəzən lak və ya tokea da adlandırırlar. Yayılma rayonlarından asılı olaraq tolak etnosu bir neçə subetnosa ayrılır: vivirano, laeo, aseravanua, moveve, tambok və mekonq.

Muna etnosu əsasən Muna adasında, həmçinin Buton adasının qərb və şimal hissələrində, kiçik adalarda – Kadatua və Siompu, Tivoro arxipelaqında yayılmışdır. Buton adasında yaşayan etnoslardan biri də tukanqbesi və kalisusu etnoslarıdır. Pançana və ya kapontori etnosu Mekonq dağlıq yaylasından cənubda cəmlənməklə, dil baxımından muna etnosuna yaxındır. Əyalətin etnoslarından biri də Vavoni adasında yaşayan eyni adlı etnosdur. Bəzən "dəniz qaraçıları" adlandırılan yerli etnoslardan biri də baco etnosudur.

İndoneziya ən iri müsəlman ölkəsidir. İndoneziyanın əhalinin əsas din mənsubiyyəti: müsəlmanlar 88,2%, xristianlar 8,9%, induistlər 1,8% və s. təşkil edir. Bir sıra bölgələrdə isə ənənəvi inanclar qorunub saxlanılmışdır (cədvəl 1.1). İnduizm Yava və Sumatranın bəzi rayonlarında yayılmışdır. Bali adasının çoxsaylı əhalisi özünəməxsus dinə (buddizm və induizm elementli yerli ənənəvi inanclar) etiqad edirlər. Çinlilər yaşayan ərazidə konfuçilik, təcrid olunmuş daxili rayonlarda isə "animistik" dinlər hakimdir.

1965-ci ildən sonra İndoneziyada hakim rejim tərəfindən ciddi nəzarətin götürülməsi, eləcə də mərkəzi qüvvələrin ümumi zəifləməsi hesabına ölkədə daxili vəziyyətə ordunun nəzarəti aradan qaldırılmışdır. Bu da İndoneziyanın bir sıra ərazilərində separatizmin artması, millətlərarası və dinlərarası qarşıdurmaların yaranması ilə nəticələndi. Moluk adalarında xristianlar və müsəlmanlar arasında qanlı toqquşmalar, Kalimantan adasında Dayakların Madur köçkünlərinin qırğınları, habelə Açedə separatçı hərəkat və Papuada separatçı fikirlərin güclənməsi baş vermişdir. Eyni zamanda, ordu nəinki bu münaqişələrin aradan qaldırılmasında iştirak etmədi, həm də Molukdakı münaqişə zonasına gedən cihadçılara silahla kömək edir, onları silahlandırırdı.

Cədvəl 1.1.

İndoneziyada dinlər

| № | Dinlər | Faizlər |
|---|---|---|
| 1 | Müsəlmanlar | 88,2 |
| 2 | Katoliklər | 3,0 |
| 3 | Pravoslavlar | 5,9 |
| 4 | İnduistlər | 1,8 |
| 5 | Buddistlər | 0,8 |
| 6 | Digər dinlər | 0,2 |

Mənbə: İndoneziya Statistikası, 2020-ci il siyahıyaalınması.

İndoneziyada əhalinin dini mənsubiyyətinə görə təhlili əsas etibarilə onların yerləşdikləri adalara görə aparılmalıdır. Əks halda bu qeyri mümkün olar. Adaların sayca çox olması və əhalinin müxtəlif dillərdə danışması əyani olaraq çətinlik yaradar. Bu baxımdan biz öz tədqiqatımızı İndoneziyanın ən böyük adaları üzrə aparmışıq.

Sulavesi adası (əvvəllər Celebes kimi tanınırdı) – dörd Böyük Sunda adasından biridir. Borneo adası ilə Molukka arxipelaqı arasında yerləşir və dünyanın on birinci ən böyük adasıdır. Sulavesidə 4 yarımada var: Minahasa yarımadası, Tomini körfəzi, Bonet və Makassar boğazı ilə ayrılan Şərq, Cənub və Cənub-Şərqi yarımadalar. Ada dərin dənizlərlə əhatə olunub və onun daxili hissəsində əsasən qeyri-vulkanik mənşəli dağlar var. Vulkanik zəncir Minahasa yarımadasından Sangir adalarına qədər uzanır. Adanın ərazisində 18,5 mln nəfərdən çox əhali yaşayır. Ən böyük şəhəri Makassardır. Ən çox yayılmış din İslamdır. Sulavesidə islamın yayılması XVII əsrin əvvəllərində başlamışdır. İlk dəfə 1605-ci ildə Bonet körfəzi sahillərində yerləşən Luvu krallığı tərəfindən qəbul edilmişdir. Ən çox yayılmış ikinci din Xristianlıqdır (təxminən əhalinin 20%-i), bu dinə əsasən Minahasanlılar, Sangirlər və Talaud adalarının sakinləri etiqad edirlər. Əksər insanlar özlərini müsəlman və ya xristian kimi tanısalar da, ənənəvi inanclar ən azı qismən qorunur. Adada kiçik Buddist və Nduist qrupları da var.

Minahasanlar Şimali Sulavesi adalarında ən böyük etnik qrupdur. Onlar əsasən inzibati mərkəzi Manado şəhərində olan Minahasa əyalətində yaşayırlar. Minahasanların dili Bolaang Mongondou dili ilə birlikdə Filippin-Avstraliya dilləri

qrupunun bir hissəsidir və əsas alt etnik qruplara bölünməyə uyğun gələn 8 dialekt daxildir: tombulu, totemboan, tonsea, toulor (digər adlar: tondano, toudano), tonsavang, pasan (ratahan, bentenane), ponosakan və yay. Bütün Sulavesi dillərindən yalnız Minahasan və Bolaang dilləri Filippin qrupuna aiddir [30]. Minahasiyalılar əsasən xristianlardır, onların arasında sünni müsəlmanlar da var, kiçik bir hissəsi ənənəvi inanclara sadiqdir. Əsas məşğuliyyəti əkinçilik, balıqçılıq və heyvandarlıqdır.

Sangir adası (Böyük Sangir, Sangir, Sangihe, Sangi) – Şimali Sulavesi əyalətindəki Sangir adalarının ən böyük adasıdır. Sangir adaları Sulavesidən 260 km şimalda, onunla Filippin adaları arasında yerləşir. İnzibati mərkəzi Tahuna şəhərində yerləşir. Adanın nisbətən kiçik ölçüsü kifayət qədər spesifik hava şəraitini təmin edir: yüksək temperaturla birlikdə həddindən artıq yüksək rütubət. Sangirlər (sangirs, sangikhe) İndoneziyada xalqdır, Sangir-Talaud qrupuna daxil olan adaların əsas əhalisini təşkil edir. Ada əhalisinin çox hissəsini müsəlmanlar təşkil edir. Bununla yanaşı, xristianlıq və yerli ənənəvi dinlər də mövcuddur.

### 1.3. İndoneziyada əhalinin təbii artımı və məskunlaşma problemləri

Əhalinin artımı təkcə statistik deyil, həm də müxtəlif inzibati dövlət orqanları tərəfindən əhalinin siyahıları formasında aparılır. Bu kartotekalar konkret vəzifələri yerinə yetirmək üçün yaradılır və adətən bütün əhalini deyil, onun bəzi qruplarını (mikrorayonların sakinləri, sosial qayğıya məruz qalan kateqoriyalar və s.) əhatə edir.

Qeyd etmək vacibdir ki, bu reyestrlərin hamısının qanuni əhalisi var və bu, faktiki əhali ilə tam olaraq eyni olmaya bilər (əhalinin siyahıyaalmalarında müəyyən edildiyi kimi, cari və ya daimi). Buna görə də əhali siyahısı məlumatları məhdud istifadə olunur. Ancaq yenə də müəyyən hallarda onlardan təkcə demoqrafik deyil, həm də sosioloji sahə tədqiqatlarında statistik tətbiqlər üçün istifadə etmək lazımdır. Çünki əhalinin təbii artımı və məskunlaşma problemlərində bu cür statistikaların aparılması olduqca vacibdir.

Əhali məskunlaşması Yer səthində yaşayan insanların sosial-iqtisadi inkişafı prosesidir. Əhalinin məskunlaşmasına onun kənd təsərrüfatında və ya sənayedə məşğulluğu əhəmiyyətli dərəcədə təsir göstərir. Çünki kənd təsərrüfatı rayonlarında əhalinin təmərküzləşməsi sənayeləşmiş rayonlara nisbətən xeyli aşağıdır.

Yer kürəsinin əhalisi son dərəcə qeyri-bərabər paylanmışdır. Ərazinin daimi yaşayış yeri olan şəhər və kənd yerləri bir-birindən fərqlənirlər. Dünya əhalisinin əksəriyyəti şəhərlərdə yaşayır. Şəhər əhalisinin və şəhərlərin sayının artması, onların cəmiyyətin inkişafında rolunun artırılması prosesi urbanizasiya adlanır. Yüksək inkişaf etmiş ölkələrdə urbanizasiyanın ən yüksək səviyyəsi, inkişaf etməkdə olan ölkələr yüksək urbanizasiya templəri ilə xarakterizə olunur. Bu prosesə ilk növbədə əhalinin təbii artımı təsir göstərir.

Əhalinin təbii artımı və məskunlaşma ərazilərin formalarının iqtisadi inkişaf səviyyəsinə uyğun gəlir. Bunlara biz faktiki və tarixi amilləri aid edə bilərik.

Faktiki amillər:

- sosial-iqtisadi: əvvəlki dövrlərdə inkişaf etmiş iqtisadiyyat sahələrinin inkişaf səviyyəsi və bölgüsü, gəlir səviyyəsi, nəqliyyat dəstəyi, investisiyaların bölüşdürülməsi;
- təbii: iqlim, relyef, torpaq və s.;
- demoqrafik: əhalinin təkrar istehsalının intensivliyi, demoqrafik strukturda regional fərqlər.

Yaşayış məntəqəsinin inkişafının tarixi mərhələləri:

- Şəhər və kənd yaşayış məntəqəsinin sərbəst inkişafı. Bu, şəhərlərin sürətli böyüməsi ilə əlaqəli urbanizasiyanın ilkin dövrüdür. Kənd yaşayış məntəqəsi əkin sahələrinin vahid məskunlaşması əsasında inkişaf etmişdir.
- Kənd əhalisinin təmərküzləşməsi. Əhalinin kənddən axını qeyri-bərabərdir, ən tez itirən və yoxa çıxan kəndlər çöldə yerləşir. Şəhərə nə qədər yaxın olsa, miqrasiya itkiləri bir o qədər az olar. Qəsəbə şəbəkəsi azaldılır.
- İnteqrasiya edilmiş köçürmə. Şəhərlə kəndi birləşdirən yeni tipli yaşayış məntəqəsi - aqlomerasiya yaranır.

Müasir İndoneziya ərazisində məskunlaşmanın ilk strukturunu təbii şərait müəyyən etmişdir. Meşələrlə örtülü həddən artıq rütubətli adalar ilk insanlar üçün əlverişsiz olmuşdir (bu adalar indi də az əhaliyə malikdirlər). Kiçik Zond adalarında isə quru iqlimlə əlaqədar torpağı becərmək suvarma tələb edirdi, həmçinin daha optimal şərait Yava adasında idi.

Təbii şəraiti rəngarəng olan ölkə relyefində bataqlıqlaşmış sahil ovalıqlarından tutmuş qarlı dağ silsilələrinə qədər elementlər ayrılır. Sumatra adasından Timor adasına qədər vulkanik mənşəli adalar yayılmışdır (Sumatra, Yava, Bali, Flores, Sulavesi). Burada yüksəkliklər vulkan konuslarını əmələ gətirirlər (400-dən çox). İndoneziya adaları üçün zəlzələ və fəaliyyətdə olan vulkanlar (mövcud olan 300 vulkandan 200-ü fəaliyyətdədir) xarakterikdir. İndoneziya ekvatorun hər iki tərəfində yerləşdiyindən burada ekvatorial iqlim hakimdir. Lakin ölkənin cənub-şərq hissəsində iqlim şəraitində fərq mövcuddur. Belə ki, ölkənin cənub-şərqi (Mərkəzi və Şərqi Yava, Madur, Kiçik Zond adaları, Sulavesinin cənub-qərbi, Yeni Qvineyanın cənubu) qışda Avstraliyadan gələn quru cənub-şərq mussonunun təsiri altındadır [29].

İndoneziya ərazisinə müxtəlif irqə məxsus insanlar gəlmiş və uzun sürən məskunlaşma ərzində yeni gələnlər köhnələri adaların daha dərinliklərinə sıxışdırmışlar. Ümumiyyətlə ölkə ərazisində ilk məskunlaşma qərbdən başlamış və şərqə tərəf istiqamət almışdır. Son məskunlaşma zamanı qarışıq monqoloid irqli əhali gəlmiş və ölkənin qərb hissəsində (Sumatra, Yava, Kalimantanın cənubu) “malay” etnosu formalaşmışdır. Daha sonra onlar Malakka yarımadası və Kiçik Zond adalarına yayılmışlar. Əvvəldə qeyd edildiyi kimi yeni gələnlər köhnələri sıxışdırdığından eyni irq və dil tərkibli əhali çətin keçilən adalarda cəmlənmişlər. Lakin etnik tərkibə görə heç bir ada digərinə bənzəməyir.

Ölkədə yaşayan etnosların 16-sının əhalisi 1 mln. nəfərdir. Yavalılar Yavanın böyük bir hissəsində, Sumatra və Kalimantanın cənubunda yaşayırlar. Həmçinin ölkədə sundlar (Yavanın cənub-qərbi), madur, malay (sahil əraziləri), papuas (İrian-Caya), melaneziyalılar (Moluk adalarının şimalı), açe (Sumatranın şimalı) xalqları mövcuddur. “Bahasa İndoneziya” adlanan və dövlət dili olan İndoneziya dili malay dili əsasında yayılmışdır, həmçinin özündə çin, hind, holland və ingilis elementlərini

birləşdirir. O cümlədən müstəqillikdən sonra geniş yayılmış və milli amillin inteqrasiyasında əsas rol oynayır.

Demoqrafik proseslərin (doğum, ölüm, təbii artım, ailə qurulması və s.) bir sıra kompleks sosial-iqtisadi amillərlə şərtlənməsinə baxmayaraq, onlar üçün müəyyən müstəqillik və böyük əhatəçilik də xasdır. Doğuma münasibətdə isə demoqrafik davranış çox mühafizəkar olub, ən çox ayrı-ayrı millətlərin və xalqların malik olduğu mövcud ənənə və qaydalardan, onların məişətlərindən, adətlərindən, ailə tərzlərindən, dini baxışlarından və s. asılıdır. Demoqrafik göstəricilərdə baş verən dəyişikliklər dünyanın ayrı-ayrı ölkələrində müxtəlif olmaqla daim dəyişmiş və indi də dəyişməkdə davam edir. Məsələn, 1990-2000-ci illərdə İndoneziyanın əhalisi 26,6 mln nəfər artaraq 179,4 mln nəfərdən 206,0 mln nəfər olmuşdur [9]. Bu illər ərzində əhalinin sıxlığı və şəhər əhalisinin faiz göstəricisi artsa da, əhalinin artım sürəti bir qədər zəifləmişdir (cədvəl 1.2.).

Cədvəl 1.2.

İndoneziyanın əsas demoqrafik göstəriciləri

| Gцstəricilər | 1990-cэ il Siyahэyaalmasэ | 2000-ci il Siyahэyaalmasэ |
|---|---|---|
| Əhalinin sayэ, mln nəfər | 179,4 | 206,0 |
| Əhalinin artэm sьrəti, %-lə | 1,98 | 1,49 |
| Əhalinin sэxlэpэ, $km^2$ | 93 | 109 |
| Єəhər əhalisi, %-lə | 31 | 42 |

Mənbə: İndoneziya Statistikası, 2000-ci il siyahıyaalınması.

2010-cu ildə isə yenidən əhalinin sıxlığı və şəhər əhalisinin faiz göstəricisi (50%) artsa da, əhalinin artım sürəti bir qədər də azalmış və 1,44% olmuşdur. Bütün bu göstəricilər ölkədə həyata keçirilən demoqrafik göstəricilərlə bağlı olmuşdur. İndoneziyanın başqa bir xüsusiyyəti də əhalinin adalar və əyalətlər arasında qeyri-bərabər məskunlaşmasıdır. 2010-cu ildə əhalinin siyahıyaalınması məlumatlarına əsasən deyə bilərik ki, əhalinin sıxlığı təkcə adalar arasında deyil, eyni adanın əyalətləri arasında da dəyişmişdir. Ölkə səviyyəsində əhalinin sıxlığı 2000-ci ildə hər kvadrat kilometrə 109 nəfərdən 2010-cu ildə hər kvadrat kilometrə 124 nəfərə yüksəlmişdir [42].

Ümumiyyətlə qeyd edim ki, əhali sıxlığı əhalinin yerləşməsinin əsas göstəricisidir. Əhali sayını ərazinin sahəsinə bölməklə əhali sıxlığını təyin etmək olar. Əhali sıxlığı müxtəlif regionlar və ölkələr üzrə fərqlidir. Məsələn, İndoneziyanın Yava adasında əhalinin orta sıxlığı 1 $km^2$-də 2000 nəfər olduğu halda, digər adalarında 3 nəfər təşkil edir [5, s. 40].

İndoneziyada əhalinin yerləşməsində kəskin ərazi fərqləri mövcuddur. Qeyd edək ki, həm Yava, həm də Madur adası bərabər səviyyədə məskunlaşıb, digər ərazilərdə isə əhali sahil və çay vadilərində cəmlənib. Daxili dağ-meşə rayonları bir qayda olaraq az əhalilidirlər.

İndoneziyada şəhər əhalisi çox böyük sürətlə artır (ildə 4,5%). Cənub-Şərqi Asiyanın digər dövlətlərindən fərqli olaraq burada çoxlu sayda böyük şəhər və 5 milyonçu-şəhər mövcuddur (Cakarta, Surabaya, Bandunq, Semaranq, Medan). Daha çox məskunlaşan ərazi paytaxt rayonu olsa da, qeyd edək ki, paytaxtın rolu digər iri şəhərlərin artması ilə kiçilir. O cümlədən ölkənin xammal rayonlarında yeni kiçik şəhərlər salınmışdır.

Əhalinin yaş strukturu əsasən onun doğum və ölüm göstəriciləri ilə əks edilir. Yüksək ölüm göstəricisi olan populyasiyalarda sağ qalma nisbətlərinin artması çox vaxt uşaqlarda qeyri-mütənasib şəkildə baş verir. Bu əslində "körpə bumu" yaradır. Zaman keçdikcə bu "körpə bumu" uşaq sağ qalmasının artması ilə bağlı təsəvvürlərə görə məhsuldarlığın azalması və iqtisadi inkişafla birlikdə ailə başına arzu olunan uşaq sayının azalması ilə sona çatır. Bu da iqtisadiyyatın adambaşına istehsal potensialını artırır və gəlirlərin də sürətli artımı və yoxsulluğun azaldılması üçün imkanlar pəncərəsi açır. Əks halda, gənclərin böyük qrupları üçün kifayət qədər iş yeri yaratmayan ölkələr sosial, siyasi və iqtisadi qeyri-sabitliyə məruz qalırlar.

2017-ci ilin məlumatlarına isə İndoneziyanın əhalisi bir qədərdə artaraq 263 mln nəfərə çatmışdır [16]. İndoneziyada əhalinin kəskin artması demoqrafik problemlərin yaranmasına səbəb olmuş, ölkədə demoqrafik partlayış baş vermiş, bu da demoqrafik siyasətin həyata keçirilməsini zəruri etmişdir.

Demoqrafik siyasət dedikdə, ölkədə baş verən demoqrafik proseslərə müdaxilə edən bir nəzarət mexanizmi, əhalinin normal təkrar istehsal prosesini təmin edən

dövlətin siyasi gücü başa düşülür. Demoqrafik siyasət tədbirləri isə sosial çeviklik (əhalinin bir sosial qrupdan digərinə keçməsi), nəslin yeniləşməsi (təbii artımla bağlı proseslərə təsir edən tədbirlər) və əhalinin miqrasiyası (əhalini nizamlamaq üçün onların bir ərazidən digərinə köç etməsi) aiddir.

2017-ci ilin statistikasına əsasən deyə bilərik ki, İndoneziya əhalisinin yaş-cins strukturu gəncdir, yəni gənc əhalinin faizi qocalardan qat-qat çoxdur. Burada göstərilən əhali piramidasında piramidanın əsası geniş, zirvəsi isə dardır, bu nisbətən yüksək doğum və aşağı ölüm nisbətini əks etdirir (şəkil 1.6.).




Şəkil 1.6. Əhalinin yaş piramidası

Şəhər və kənd yerlərində kişi əhalinin faizi qadınlardan aşağıdır (49%-ə qarşı 51%). İndoneziyanın əhalisi müxtəlif yaş qruplarından ibarətdir, 28%-i 15 yaşdan aşağı, 66%-i 15-64 yaş, 6%-i 65 yaş və yuxarıdır [43].

Elmi kateqoriya kimi məskunlaşma dedikdə, əhalinin sıxlığının müxtəlifliyi ilə səciyyələnən və yaşayış məntəqələri şəbəkəsinin formalaşmasının nəticəsi olan müəyyən ərazi üzrə əhalinin yerləşdirilməsi başa düşülür. Əhalinin köçürülməsi ərazinin tarixi məskunlaşması prosesinin nəticəsidir ki, bu da bir sıra amillərin təsiri altında baş verir: təbii, sosial, iqtisadi, siyasi, demoqrafik və s. yaşayış məntəqələrinin məskunlaşması və yerləşməsi, onların əlaqəsi və s. Eyni zamanda, mövcud

məskunlaşma sistemləri əhalinin ərazi təşkili forması kimi əhalinin məişət xüsusiyyətlərini, sosial-coğrafi prosesidir.

Əhalinin məkan paylanmasının öyrənilməsi sosial-coğrafi tədqiqatın mühüm sahəsidir, çünki o, sosial infrastruktur müəssisələrinin (səhiyyə müəssisələri, uşaq bağçaları, məktəblər və digər orta təhsil müəssisələri, mədəniyyət ocaqları, ticarət, məişət xidmətləri və s.) yerləşdirilməsinin xüsusiyyətlərini müəyyən edir. Nəsillərarası əlaqələrin formalaşması, istehsalın ixtisaslaşması, müəyyən ərazidən kənara çıxarılan məhsul axınının tutumu və strukturu, yerli istehsalın inkişafı da daha çox əhalidən asılıdır.

Ölkələr və qitələr daxilində insanlar düzənliklərdə və alçaq dağlıqda məskunlaşmağa üstünlük verirlər, buna görə də dünya əhalisinin 80%-dən çoxu dəniz səviyyəsindən 500 m-ə qədər yüksəklikdə yaşayır. Düzənliklərdə insanlar sahilyanı əraziləri seçirlər. Tədqiqatçıların fikrincə, dünya əhalisinin təxminən 60%-i dəniz sahilindən 200 kilometrlik zonada yaşayır. Təbii zonalar arasında mülayim zonanın meşə və çöllərinə, tropik və subtropiklərə üstünlük verilir, ən az məskunlaşan quraq çöllər və səhralar, tayqa və tundra torpaqları, yəni istilik və su təchizatı zəif olan ərazilərdir. Beləliklə, Yerin səthi çox qeyri-bərabər məskunlaşıb və prinsipcə məskunlaşma üçün əlverişli olan böyük boşluqlara malikdir. Daha geniş məskunlaşma üçün maneə planetin fiziki maneələri deyil, insanların həyatına və fəaliyyətinə uyğunlaşmasını əsaslandırmaq problemidir. Bununla bağlı sual yaranır ki, Yer kürəsinin məskunlaşmasının “potensial”ı və ya onun “tutumu” – nə qədər insanı yerləşdirib qidalandıra bilər [28].

Hər bir ölkə ərazisində əhalinin yerləşdirilməsi prosesinin inkişafı müxtəlif amillərin məcmusu ilə müəyyən edilir. Əhalinin paylanmasının təbiətinə təsir edən amillər üç qrupa bölünür:

1) sosial-iqtisadi - inkişaf səviyyəsi və iqtisadiyyatın sahələrinin cari bölgüsü; əhalinin gəlir səviyyələrində regional fərqlər; əsas vəsaitlərin bölüşdürülməsi; nəqliyyat infrastrukturunun inkişafı və s.;

2) təbii - iqlim, relyef, torpaq, faydalı qazıntılar və digər təbii ehtiyatlar. Əhalinin bölüşdürülməsi prosesində bu amillərin əhəmiyyətinə baxmayaraq,

aşağıdakı qanunauyğunluq qeyd olunur: iqtisadi inkişaf səviyyəsi nə qədər yüksək olarsa, məskunlaşmanın təbii şəraitdən və ehtiyatlardan birbaşa asılılığı bir o qədər az olar;

3) demoqrafik - bunlar ilk növbədə miqrasiya proseslərində regional fərqlər və əhalinin təkrar istehsalı proseslərinin intensivliyidir.

İndoneziya Respublikasında əhalinin daha sıx və intensiv məskunlaşdığı ərazi paytaxt Cakarta şəhəridir (şəkil 1.7.). Cakarta Yavanın şimal-qərb sahilində, Cakarta körfəzindəki Çilivunq çayının mənsəbində, Yava dənizinin sahilində yerləşir. O, strateji baxımdan Sunda boğazının yaxınlığındadır. Cakartanın şimal hissəsi düzənlik ərazisidir, bəzi əraziləri dəniz səviyyəsindən aşağıdadır və tez-tez daşqınlara məruz qalır. Şəhərin cənub hissələri dağlıqdır. Bu Cənub yarımkürəsində yerləşən Asiyanın iki paytaxtından biridir. İnzibati cəhətdən Cakartanın bir hissəsi olan Min Adalar şəhərin şimalında, Cakarta körfəzində yerləşir.



Şəkil 1.7. Cakarta şəhəri

Ətrafları ilə birlikdə Böyük Cakarta inzibati vahidini yaradan Cakarta şəhərində Asiya xalqlarının müxtəlif nümayəndələri yaşayır. Cakartanın (tərcüməsi

“böyük qələbə” şəhəri) əsası XIV əsrdə qoyulmuşdur. Şəhərin salınma tarixi Yava sultanının bu torpaqları zəbt etmək istəyən Portuqaliya ordusuna qalib gəlməsilə əsaslandırılır. 1619-cu ildə Cakarta holland işğalçıları tərəfindən darmadağın edilir və yandırılır. Onun yerində yeni şəhər-qala salınır. Respublika üsul-idarəsi yarandıqdan sonra Cakarta Cənub-Şərqi Asiyada iri iqtisadi və mədəni mərkəz kimi inkişaf etməyə başladı. Şəhərdə çoxsaylı təhsil, mədəni-maarif və elmi müəssisələr açılmışdır. Cakartanın cənub-qərb hissəsində iri idarələr və yaşayış evləri inşa edilmişdir. Burada, həmçinin inzibati binalar, ticarət və sənaye tikililəri, idman kompleksləri inşa olunmuşdur. Yaşayış evləri, əsasən bir və ya ikimərtəbəli kotteclərdir. Müasir Cakartada meqapolis ilə ekzotik kənd evləri həmahənglik təşkil edir ki, bu da paytaxtı dünyanın digər iri şəhərlərindən fərqləndirir. İndoneziyanın turistləri cəlb edən xüsusiyyətlərindən biri də Cakartanın fərqli görünüşüdür [2, s. 250-251].

Cakarta şəhəri əhalisinin sayına görə dünyanın ən böyük şəhərlərindən biridir. Cakarta şəhərinin adı tarixi dövlər ərzində bir neçə dəfə dəyişdirilmişdir. 397-1527-ci illərdə Sunda Kelapa, 1527-1619-cu illərdə Cayakarta, 1619-1942-ci illərdə Batavia, 1942-1972-ci illərdə Djakarta, 1972-ci ildən Cakarta adlandırılır. Cakarta şəhərinin ərazisi 699,5 kvadrat kilometr olub, İndoneziya əyalətləri arasında ən kiçikdir. Bununla belə, onun metropoliten sahəsi 6,392 kvadrat kilometr ərazini əhatə edir və bu, həmsərhəd Qərbi Yava və Banten əyalətlərinin ikisi qədərdir [46]. Böyük Cakarta ərazisinə üç sərhəd regency (Bekasi Regency, Tangerang Regency və Bogor Regency) və beş qonşu şəhər (Bogor, Depok, Bekasi, Tangerang və South Tangerang) daxildir.

1961-1980-ci illər arasında Cakarta əhalisi iki dəfə artmış və 1980-1990-cı illər ərzində şəhərin əhalisinin hər il üçün 3,7% artımı qeydə alınmışdır. 2010-cu il siyahıyaalınma məlumatlarına əsasən şəhər əhalisi təxminən 9,58 mln olmuşdur. Əhali 1970-ci ildəki 4,5 milyondan 2010-cu ildə 9,5 milyona yüksəlmişdir. Yalnız qeyri-rəsmi qeydiyyatda olan sakinlər nəzərə alınmaqla, Böyük Cakartanın əhalisi 1970-ci ildəki 8,2 milyondan 2010-cu ildə 28,5 milyona yüksəlmişdir. 2014-cü ildə Cakartanın əhalisi 10 milyon nəfər, əhalinin sıxlığı 15-16 nəfər/$km^2$ olmuşdur. 2014-

cü ildə Böyük Cakartanın isə əhalisi 30 milyon nəfər olub, İndoneziyanın ümumi əhalisinin 11%-ni təşkil etmişdir.

Paytaxt sakinlərinin əsas hissəsini yavalı, çinli və hindlilər təşkil edir. Əhalisinin demək olar ki, 90%-i ingilis dilini bilir və bu dildə danışır. Şəhər demək olar ki, iki hissəyə bölünmüşdür. Biz tərəfdən kasıb məhəllələr, səsli-küylü küçələr və tıxacları, digər tərəfdən isə yüksək mərtəbəli binalar, muzeylər və ticarət mərkəzləri mövcuddur. Şəhər meqapolis rolunu oynayır. Şəhər turizm baxımından olduqca inkişaf etdirilmişdir. İri və dünya standartlarına uyğun mehmanxanalar, istirahət yerləri və çimərlikləri ilə olduqca məşhurdur.

Əhalinin təbii artımı və məskunlaşma problemlərini müəyyən etmək üçün ən əyani vasitələrdən biri proqnozlaşdırılmanın aparılmasıdır. Demoqrafik proqnoz əhalinin hərəkətinin əsas parametrlərinin və gələcək demoqrafik vəziyyətin: əhalinin sayı, yaşı, cinsi və ailə strukturu, məhsuldarlıq, ölüm, miqrasiya və əhalinin bəzi keyfiyyət xüsusiyyətlərinin elmi əsaslarla proqnozlaşdırılmasıdır.

Hazırda əhalinin strukturunu və hərəkətini proqnozlaşdırmaq cəhdləri olmayan bir ölkənin adını çəkmək çətindir. BMT bütün dünya, onun regionları və s. üçün müvafiq hesablamalar aparılır. Əhalinin sayı və tərkibinin uzunmüddətli hesablamaları nəzəri və xüsusilə praktiki baxımdan çox aktual məsələdir.

Ailələrin sayı və tərkibinin proqnozu getdikcə daha çox zərurət doğurur. Ailələrin uşaqların sayına görə bölünməsinin uzunmüddətli hesablamaları xüsusi əhəmiyyət kəsb edir. İstər bütövlükdə ölkədə, istərsə də onun ayrı-ayrı regionlarında məktəbəqədər və məktəb kontingentinin həcmində gələcək dəyişiklikləri nəzərə almaq böyük praktiki əhəmiyyət kəsb edir. Sosial təminat orqanlarına pensiya yaşına çatmış şəxslərin gözlənilən sayı haqqında məlumat lazımdır. Əhaliyə tibbi yardımın inkişafı üçün gələcək yaş və cins strukturu haqqında məlumatlar lazımdır, çünki təlim keçmiş tibb işçilərinin profili və tibb müəssisələrinin tikintisi əsasən ondan asılıdır. İstehlak mallarına, xüsusən də geyimə tələbatın xarakteri əhalinin yaş və cins strukturundan, ailələrin sayı və tərkibindən asılıdır.

İndoneziya əhalisi 1971-ci ildəki 119,21 mln-dan 2016-cı ildə 258,50 mln-a yüksəlmişdir. 1980-ci ildən 1990-cı ilə qədər orta illik artım tempi 1,98% və 2010-cu ildən 2016-cı ilə qədər 1,36% olmuşdur. Əhalinin 2012-2020-ci illərdə illik artım tempi 1,25% olmaqla 270,2 mln nəfər olduğunu və ya 2000-2010-cu illər arasındakı illik artım tempi ilə müqayisədə 1,49% azaldığını qeyd etmək lazımdır. Əhalinin orta illik artım tempi 0,98% olmaqla 2030-cu ilə qədər 296,4 mln nəfərə çatacağını proqnozlaşdırılıb. İndoneziyanı 2015-ci ildən 2045-ci ilə qədər hər il 0,74% proqnozlaşdırılan əhalinin artım tempi ilə həm imkanlar, həm də çətinliklər gözləyir və əhalinin sayı 2045-ci ildə 318,95 mln nəfərə çatacaqdır. 2050-ci ilə qədər İndoneziya əhalisinin təxminən 335 mln-a çatacağı təxmin edilir [43, s. 34].

Yuxarıda qeyd etdiyimiz bütün bu proqnoz hesablamalar gələcəkdə İndoneziyanın demoqrafik siyasətinin düzgün qurulmasına, ərazilərdə əhalinin iş yerləri ilə təminatına, məskunlaşma siyasətinə və əhalinin rifah halının yaxşılaşdırılmasına köməklik göstərəcəkdir. Ölkə qeyri-qənaətbəxş kommunikasiya və ayrı-ayrı regionların parçalanması ilə xarakterizə olunur.

# II FƏSİL. İNDONEZİYANIN DEMOQRAFİK İNKİŞAF PERSPEKTİVLƏRİ

## 2.1. İndoneziya dövlətinin demoqrafik siyasəti

Demoqrafik siyasət - əlverişli şəraitdə mövcud meylləri qoruyub saxlamaq, vəziyyət əlverişli olmadıqda isə onları dəyişdirmək məqsədi ilə dövlətin demoqrafik proseslərə məqsədyönlü təsir vasitəsidir. XIX əsrdə bu siyasəti stimullaşdırmaq cəhdlərinin göstərildiyi ilk ölkə Fransa olmuşdur. XX əsrin 90-cı illərində belə ölkələrin sayı 130-a (iqtisadi cəhətdən inkişaf etmiş bütün ölkələr və inkişaf etməkdə olan təqribən 80 ölkə) çatmışdır.

Demoqrafik siyasət, əhali siyasəti dövlətin cəmiyyətin əsas məhsuldar qüvvəsinin - əhalinin inkişafını tənzimləməyə yönəlmiş fəaliyyəti kimi müəyyən edilə bilər. Əhali siyasəti aşağıdakı elementlərdən ibarətdir: əmək şəraitinə təsir, əhalinin bütün təbəqələrinin həyat şəraitinin yaxşılaşdırılması, təbii hərəkət proseslərinə, miqrasiya hərəkətliliyinə və əhalinin strukturuna təsir göstərməyə yönəlmiş tədbirlər. Demoqrafik proseslərin idarə edilməsi dedikdə isə, uzunmüddətli perspektivdə əhalinin artmasının arzu olunan (optimal) növünün məqsədyönlü formalaşdırılması və ya mövcud növün, əgər optimaldırsa, kompleks həyata keçirilməsi yolu ilə konsolidasiyası başa düşülməlidir.

Demoqrafik siyasətin tərkib hissələrinə aşağıdakılar daxildir:

1. Əhalinin təkamülü, artması və miqrasiyası qanunauyğunluqları haqqında müasir fikirlərə cavab verən demoqrafik siyasət konsepsiyası dəyişikliklər baş verdikcə yenidən nəzərdən keçirilməlidir.

2. Əhalinin təkrar istehsalı üçün arzu olunan rejimin uzun müddətə formalaşmasını nəzərdə tutan demoqrafik siyasətin məqsədləri.

3. Demoqrafik siyasətin prinsipləri, bunlara daxildir: uzunmüddətli xarakter, elastiklik, mürəkkəblik (demoqrafik inkişafın bütün aspektlərinin əhatə olunması) [12, s. 108-109].

4. Demoqrafik siyasət tədbirləri, bunlara aşağıdakılar daxildir:

– iqtisadi tədbirlər (ödənişli məzuniyyətlər, doğuşa görə müavinətlər, uşaqların sayından asılı olaraq müavinətlər, kreditlər, vergi və mənzil müavinətləri);
– inzibati-hüquqi tədbirlər (nikahları, boşanmaları, uşaqların ailədə vəziyyətini, aliment öhdəliklərini, analıq və körpəliyin qorunmasını, abortları, əlillərin sosial təminatını, işləyən qadınların məşğulluq və əmək şəraitini və s. tənzimləyən qanunvericilik aktları);
– sosial-psixoloji tədbirlər (ictimai rəyi, demoqrafik davranış norma və standartlarını, cəmiyyətdə demoqrafik iqlimi formalaşdıran maarifləndirmə və təbliğat tədbirləri).

Demoqrafik siyasət əhalinin təkrar istehsalı proseslərinin tənzimlənməsi sahəsində dövlət orqanlarının və digər sosial institutların məqsədyönlü fəaliyyətidir. Demoqrafik siyasətin obyekti reproduktiv yaşda olan əhali, ailə, demoqrafik siyasətin subyekti isə əhalinin reproduktiv davranışının tənzimlənməsi ilə bağlı ictimai münasibətlərdir. Demoqrafik siyasətin məqsədi ölkə üçün arzu olunan əhalinin təkrar istehsalı rejiminin formalaşdırılmasıdır. Demoqrafik siyasətin uğurla həyata keçirilməsinin ciddi şərti onun uzunmüddətli xarakter daşımasıdır, çünki əhalinin davamlı inkişafını təmin etmək üçün nəsillərə olan ehtiyacın formalaşması və saxlanılması uzun müddət tələb edir. Bundan əlavə, bu siyasətlərin davamlı olaraq təkmilləşdirilməsi və genişləndirilməsi tələb olunur, çünki uzunmüddətli tədbirlər zamanla öz cəlbedici, stimullaşdırıcı təsirini itirir.

Demoqrafik proseslərin tənzimlənməsi həm də uzunmüddətli perspektivdə əhalinin sabitliyini təmin etmək məqsədilə şərait yaratmaq üçün müvafiq hüquqi aktların hazırlanmasını tələb edir. Demoqrafik və ailə siyasəti sahəsində tövsiyələr ümumilikdə aşağıdakı istiqamətlər üzrə hazırlana bilər:

– ənənəvi ailənin möhkəmləndirilməsi və doğum səviyyəsinin nizamlanması;

- əhalinin sağlamlığının yaxşılaşdırılması;
- qeyri-qanuni əmək miqrasiyasının minimuma endirilməsi;
- uzunmüddətli perspektivdə əhalinin təkrar istehsalının optimal növünün formalaşdırılması üçün tamhüquqlu dövlət demoqrafik siyasəti üzrə tədbirlər sisteminin işlənib hazırlanması.

Asiya regionunda demoqrafik siyasət aparan dövlətlərdən biri də İndoneziyadır. Ölkədə demoqrafik siyasətdə həyata keçirilən tədbirlər kimi nikaha daxilolma yaşının qanunla qaldırılmasının reallaşması olmuşdur. Belə ki, İndoneziyada nikaha daxilolma yaşının göstərici kişilərdə 24,1; qadınlarda isə 20,0 yaş götürülür [19].

İndoneziya qanunvericiliyinə görə, sosial rifahı insanların firavan yaşaya bilməsi və sosial funksiyalarını lazımi şəkildə yerinə yetirə biləcək şəkildə inkişaf etdirə bilməsi üçün onların maddi, mənəvi və sosial ehtiyaclarının ödənilməli olduğu dövlət siyasəti müəyyən edilir.

Yoxsulluğun səviyyəsinin artması, sosial qruplar arasında iqtisadi uçurumların genişlənməsi və yoxsulların əsas gündəlik ehtiyaclarını ödəyə bilməməsi İndoneziyada ciddi sosial problem olmuşdur. Böhran milli və yerli dövlət orqanları tərəfindən müxtəlif xeyriyyə proqramlarının həyata keçirilməsini tələb edirdi. Lakin bütün əhalinin rifahının təmin edilməsi çərçivəsində vahid tədbirlər sistemi hazırlamaq əvəzinə, böhranlı dövrlərdə tətbiq edilən siyasi tədbirlər bu problemləri qismən həll etdi və əhalinin aztəminatlı təbəqələrinə yalnız maddi yardım göstərməyə yönəldildi.

Prezident Soeharto 1967-ci ildə Dünya Liderlərinin Bəyannaməsini imzalamaqda, digər dövlət başçılarına qoşulduqdan sonra baş vermiş əhali ilə bağlı problemlərə cavab olaraq İndoneziya hökuməti bir çox inkişaf proqramlarını həyata keçirmişdir. Bu bəyannamədə əhalinin sürətli artımı potensial olaraq qəbul edilmişdir. Çünki əhalinin sürətli atrımı iqtisadi inkişafa mane olur. Demoqrafik siyasətini yürütmək üçün İndoneziya hökuməti bir sıra proqramlar həyata keçirməyə başlamışdır. “Ailə planlaşdırılması” bu proqramların ən mühümlərindən biridir. Belə

ki, Beynəlxalq Planlı Valideynlik Federasiyasının (IPPF) himayəsi altında, İndoneziya Planlı Valideynlik Assosiasiyası (IPPA) 1957-ci ildə İndoneziyada ailə planlaması fəaliyyətlərinə başlamışdır. IPPA ana və uşaq baxımı da daxil olmaqla ailə planlaşdırılması üzrə məsləhət və xidmətlər göstərmişdir. 1968-ci ildə isə Milli Ailə Planlaması İnstitutu yaradıldı və iki il sonra Milli Ailə Planlaşdırılması Əlaqələndirmə Şurası (NFPCB, həmçinin İndoneziya qısaltması ilə BKKBN kimi tanınır) olaraq yenidən təşkil edildi [42, s. 27].

BKKBN idarəsiz orqandır və sədri birbaşa prezidentə hesabat verir. İndoneziya hökuməti ailə planlaşdırılmasına ciddi sadiqdir və ailə planlamasını təşviq etmək üçün proqramlar hazırlamaq üçün dini və icma liderləri ilə işləyir.

Ailə böyüməkdə olan nəsillərin can sağlığının möhkəmləndirilməsində və tərbiyəsində, cəmiyyətin iqtisadi və sosial tərəqqisinin təmin edilməsində, demoqrafik proseslərin yaxşılaşdırılmasında getdikcə daha böyük rol oynayır. İnsanın xarakteri və onun əməyə, ən başlıca mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır. Yəni cəmiyyətin qurulması, hər şeydən əvvəl, möhkəm, mənəvi və əxlaqi cəhətdən sağlam ailələrin mövcud olmasını tələb edir. Bunu əsas götürərək, dövlət ailənin möhkəmləndirilməsinə, sosial funksiyaların yerinə yetirilməsində, uşaqların tərbiyyəsində ona yardım göstərməsinə, çoxuşaqlı və gənc ailələrin maddi, mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilən kompleks tədbirlər sistemi işləyib hazırlamalı və həyata keçirməlidir. Çünki ailədəki uşaqların sayı təkcə ailədaxili şəxslərin arzu və istəyi ilə deyil, onları əhatə edən mühitlə, həyat şəraiti ilə sıx surətdə bağlıdır və ailədə əhalinin təkrar istehsalı prosesinə bu şəraitin hamısı birgə təsir göstərir.

Qısa bir müddətdə əhali siyasəti nəinki ölkədə doğum səviyyəsinin yarıya enməsinə, həm də ailənin rifahının yaxşılaşmasına kömək etdi. İndoneziyada ailə planlaşdırılması proqramının uğuruna töhfə verən amillərdən biri ailə planlaşdırılmasının doğuma nəzarətdən daha çox olduğu anlayışı ilə proqramların həyata keçirilməsində icmanın səlahiyyətləndirilməsi olmuşdur. Əhali və Ailənin İnkişafı haqqında 2009-cu il tarixli 52 saylı Qanunda ailə planlaşdırılması açıq şəkildə doğuşun tənzimlənməsi, o cümlədən ideal doğum intervalı və doğuş zamanı

ana yaşının tənzimlənməsi və hamiləliyin reproduktiv funksiyalara uyğun olaraq təşviqi, qorunması və dəstəklənməsi yolu ilə tənzimləmə səyləri kimi müəyyən edilmişdir. Lakin 1999-cu ildə Regional İdarəetmə haqqında 22 saylı Qanuna əsasən ölkənin sistemi mərkəzləşdirilmiş idarəetməsi rayon və ya bələdiyyə səviyyəsində regional muxtariyyətə dəyişdirildi. 2004-cü ildə bu qanun planlaşdırma səlahiyyətlərini müxtəlif təşkilatlarla rayon və ya bələdiyyə hökumətinə vermək üçün yenidən işlənmişdir.

Davam edən qeyri-mərkəzləşdirmə proseslərinin gətirdiyi dəyişən strateji dövrü gözləmək üçün BKKBN, Əhali və Milli Ailə Planlaşdırılmasının İnkişafı üzrə BKKBN-nin 2010-2014-cü illər üçün Strateji Planında milli ailə planlaşdırılması proqramlarının görünüşünü, missiyasını və strategiyalarını yenidən işləyib hazırlamışdır. BKKBN-nin yeni görünüşü "2015-ci ildə balanslaşdırılmış əhali artımıdır". Bu görünüş 2015-ci ildə qadın başına 2,1 doğum və xalis çoxalma əmsalı (TFR) 1,0 səviyyəsində hədəf qoyur [42, s. 28].

Doğum səviyyəsinə nəzarət üsulları barədə məlumatlı olmaq, kontraseptiv üsullara çıxış əldə etmək, zamanında və effektli şəkildə əlverişli üsullardan istifadə istiqamətində atılan mühüm addımlardan biridir. 2007-ci ildə İndoneziya Demoqrafik və Sağlamlıq Sorğusu (İDSS) zamanı ailə qurma üsulları barədə bütün informasiya ilk öncə respondentlərə, hamiləliyi təxirə salmaq və yaxud tamamilə qarşısını almaqdan ötrü cütlük üçün hansı üsulların olduğunu sual verməklə əldə etmişdir. Əgər respondent konkret bir üsulla tanış deyilsə, müsahib həmin üsulu başa saldıqdan sonra respondentin həmin üsul barədə anlayışı olub-olmadığını aydınlaşdırır. Sorğu kitabçasına ailə qurmağın yeddi müasir üsulu üçün təlimatlar daxil edilmişdir: qadın və kişi sterilizasiyası, həblər, uşaqlıqdaxili spiral (UDC), inyeksiya və implantlar, kontraseptiv qoruyucu, intravag/diafraqma, laktasion amenorea metodu (LAM). Eyni zamanda məlumat iki ənənəvi üsula əsasən toplanmışdır: dövri məhrumluq və nəticə. Respondent tərəfindən qeyd olunan dərman bitkiləri və qarın masajı kimi digər bütün ənənəvi və xalq üsulları da nəzərə alınmışdır [44, s. 11].

Ölkənin iqtisadi inkişafı üçün miqrasiyanın irrasional, cəmiyyət nöqteyi-nəzərindən, hərəkət istiqamətləri və həcmləri, yeni köçənlərin sağ qalma səviyyəsinin

aşağı olması ilə bağlı iqtisadi nəticələrinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Digər tərəfdən, miqrasiya, xüsusilə daxili miqrasiya ölkədə əmək ehtiyatlarının inkişafı və yenidən bölüşdürülməsi, yeni sənaye sahələrinin inkişafı üçün təsirli amildi r. Xarici işçi qüvvəsinin qeyri-qanuni miqrasiyası isə milli iqtisadiyyata böyük ziyan vurur.

Ümumiyyətlə, əmək ehtiyatlarının formalaşması, bölüşdürülməsi və istifadəsinin demoqrafik parametrləri və sosial-iqtisadi xüsusiyyətləri bir-biri ilə sıx bağlıdır, bir-birini şərtləndirir və tamamlayır. Hazırda İndoneziya hökuməti bir çox inkişaf proqramları həyata keçirir. Bu proqramlar iqtisadi inkişafa yönəldilsə də əhalinin sürətlə artımına, yəni demoqrafik partlayışa maneə olur. İndoneziyanın demoqrafik siyasəti ailə planlaşdırılmasının ən mühüm istiqamətlərindən biridir. Bütün bu görülən işlər qıza bir müddətdə demoqrafik siyasət nəinki ölkədə doğum səviyyəsinin yarıya enməsinə, həm də ailənin rifahının yaxşılaşmasına kömək etmişdir. İndoneziyada ailə planlaşdırılması proqramının uğurla həyata keçirilməsi doğuma nəzarət mexanizmini əsas götürməklə aparılmışdır.

"Ananın sığorta proqramı" Dövlət proqramı olmaqla, doğuşaqədərki müşahidəni, doğuşu, doğuşdansonrakı ana və yeni doğulan uşağa göstərilən xidməti, ailə planlaşdırılmasını əhatə edir. Bu proqram, xüsusilə aşağı göstəricilərə malik rayonlarda tibb işçiləri və müəssisələrinin həcminin artırılmasına imkan yaratmışdır. Körpə ölümünün azaldılmasının dəstəklənməsi strategiyası təmiz su ilə təminat, sağlam həyat şəraiti və infeksion xəstəliklərin azaldılması yolu ilə gigiyena və sanitariya vəziyyətinin yaxşılaşdırılmasından ibarətdir.

Sağlamlıq və sağ qalma nisbətlərini yaxşılaşdıran ölkələr qızların təhsilini və reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinə çıxışı təşviq etmək kimi məhsuldarlığın azalmasını mümkün edən siyasətlərdən faydalana bilər. Əhalinin nisbətən böyük hissəsinin aktiv əmək və həyat dövrünün qənaət hissəsində cəmləşdiyi ölkələr üçün əlverişli demoqrafik göstəricilərin potensial faydalarını ələ keçirmək üçün siyasət lazımdır. Bu cür siyasətlərə rəqabətli əmək və kapital bazarlarının fəaliyyətinin dəstəklənməsi, işçilərin insan kapitalı ilə təmin edilməsi, infrastrukturun qurulması, sağlam makroiqtisadi idarəetmə, diqqətli ticarət siyasətinin

planlaşdırılması və yaxşı idarəetmə daxildir. Bu siyasətlər həmişə arzuolunandır, lakin əmək qabiliyyətli əhali çox olduqda, paylar yüksəlir [36]. Bəzi ölkələr bu müxtəlif siyasət dəstlərinə investisiya qoymaq üçün vəsait tapmaqda çətinlik çəkirlər, çünki onların adambaşına düşən gəlirləri hazırda inkişaf etmiş bəzi ölkələr müqayisə oluna bilən demoqrafik mərhələdə olduğundan real ifadədə aşağıdır.

Yuxarıdakı qeyd olunanları həyata keçirmək üçün əhalinin və ailə planlaşdırılmasının inkişafını xoşbəxt, firavan kiçik ailəyə nail olmaq üçün əhaliyə əsaslanan inkişaf kimi müəyyən etmişdir.

Ailə planlaşdırılmasının əsas işinə aşağıdakılar aiddir:

- əhaliyə nəzarət siyasətinin uyğunlaşdırılması;
- əhalinin parametrlərinin müəyyən edilməsi;
- məlumatların və onların təchizatının və keyfiyyətinin artırılması;
- əhali və əhaliyə nəzarət konsepsiyasından istifadə etməklə həyata keçirmək, ailə planlaşdırılmasının inkişafı;
- yeniyetmələrin ailə həyatına hazırlanmasında, reproduktiv hüquqların həyata keçirilməsi və s.

Qeyd edim ki, demoqrafik siyasətin həyata keçirilməsində ailə mühüm rol oynayır. Ailə uşaqları tərbiyə edir, onların müəyyən sosial davranış normalarına, müəyyən təhsil səviyyəsinə, fəaliyyət növünə yönəldir. Buna görə də ölkədə demoqrafik siyasət tədbirləri ilk növbədə ailəyə, onun inkişafı üçün ən yaxşı şəraitin yaradılmasına yönəldilməlidir. Bu baxımdan, ailə planlaşdırılması iştirakçılarının davamlılığının və rifahının artırılması üçün proqramı, tərəfləri və tərəfdaşları həvəsləndirmək kimi istiqamətləri də alt göstəricilər kimi müəyyən etmişdir.

Son illər ərzində İndoneziyada demoqraf tədqiqatçılar Cini əmsalından (Cini əmsalı – gəlir bölgüsü qeyri-bərabərliyinin göstəricisidir, onun aşağı qiyməti daha çox bərabərlik deməkdir) istifadə edirlər. Bu göstərici İndoneziyada son bir neçə il ərzində 0,35-dən 0,41-ə yüksəlmişdir [47]. Təhlil məlumatları göstərir ki, İndoneziya, Çin, Hindistan və Cənubi Afrika da daxil olmaqla, son on ildə güclü iqtisadi artım yaşayan demək olar ki, bütün ölkələrdə bərabərsizlik artır [49]. Buna baxmayaraq,

bərabərsizliyin azaldılması mümkündür və həyata keçirilə bilər. Məsələn, Braziliya bu tendensiyanın qarşısını almağa və bərabərsizliyi azaltmağa nail olmuşdur. Braziliyanın innovativ inkişaf planına hamı üçün, xüsusən də əhalinin təcrid olunmuş təbəqələri üçün imkanlar yaratmağı hədəfləyən bir çox proqramlar daxildir [41]. Məhz bu baxımdan İndoneziyada bərabərsizliyin formaları, bərabərsizliyin səbəbləri, hökumətin reaksiyaları və siyasətləri, bərabərsizliyin azaldılması yolları öyrənilməli və təhlillər aparılmalıdır.

İndoneziyada 263 mln insanın yaşadığı bir şəraitdə bütövlükdə ölkədə vəziyyət on il əvvəlkindən daha firavandır. Adambaşına düşən gəliri 3000 ABŞ dolları və dünyanın 20-ci ən böyük ÜDM-si ilə Belçika və İsveçi üstələyir və illik büdcəsi təxminən 150-170 mlrd dollar təşkil edir [13, s. 156].

İndoneziyada bərabərsizlik bir neçə formada mövcuddur. Birinci gəlir bərabərsizliyidir (məsələn, əmək haqqı baxımından). Maksimum əmək haqqı minimum əmək haqqının 100 misli qədərdir. Cakarta şəhərində minimum əmək haqqı 2 mln rupi (təxminən 200 ABŞ dolları), dövlət şirkətlərinin direktorlarının və İndoneziya Bankının (İndoneziya mərkəzi bankı) yüksək vəzifəli işçilərinin maaşı isə 250 mln rupi (təxminən 25 min ABŞ dolları) təşkil edir. İkinci sosial müdafiədə bərabərsizlikdir (məsələn, tibbi sığorta baxımından). İndoneziyada təxminən 100 mln insan hələ də tibbi sığorta ilə əhatə olunmamışdır [31]. Üçüncü vergi yükünün qeyri-bərabərliyidir. Sübutlar göstərir ki, ən böyük vergi ödəyiciləri biznes və şirkətlərin səhmlərinə sahib olan varlı şəxslər deyil, işçilərdir. Dördüncü yollar və körpülər kimi inkişaf etməmiş infrastrukturda ifadə olunan regional bərabərsizlikdir.

Aşağıdakı mexanizmlərin inkişafı ilə bərabərsizlik əhəmiyyətli dərəcədə azaldıla bilər:

- yoxsul təbəqəni dəstəkləmək üçün vergi ödənişlərinin və vergi yükünün daha bərabər paylanması;
- səhiyyə, təhsil, su təchizatı və kanalizasiya kimi əsas dövlət xidmətlərinin bazar mexanizmindən daha çox ehtiyaclar əsasında göstərilməsi;

– həm səmərəli, həm də ədalətli sosial müdafiə sistemi, xüsusilə universal səhiyyə sistemi.

Yuxarıda qeyd etdiklərimiz İndoneziya dövlətinin demoqrafik siyasətinin tərkib hissəsi kimi qəbul edilməli və dövlət demoqrafik siyasətin strateji istiqamətlərini müəyyən etməlidir.

## 2.2. Miqrasiyanın İndoneziyanın demoqrafik inkişafında rolu

Sivilizasiyanın bütün tarixi boyu miqrasiya xalqların həyatının ayrılmaz hissəsi, dəyişən reallıqda bəşəriyyətin yaşama tərzi olmuşdur. İnsan öz inkişafının ən erkən mərhələlərində rasional varlıq kimi yaşamaq üçün yeni torpaqlara köçür, bununla da flora və faunanın tükənməsinə, müəyyən ərazidə əhalinin artması prosesinə reaksiya verirdi. Müəyyən mənada əhalinin miqrasiyası bəşəriyyətin özünü yaratdı, yəni miqrasiya prosesində iştirak edən şəxs müəyyən ərazilərdə məskunlaşdı və həmin əraziləri mənimsədi.

Miqrasiya, təcrübənin ötürülməsi əkinçilikdə yeni alətlər, üsullar və s. ixtiradan daha tez baş vermiş və bir-birindən uzaq müstəqil sivilizasiyaların inkişafında təxmini sinxronizmə səbəb olmuşdur. Səmərəli nəqliyyatın yaranmasından əvvəl də minlərlə kilometr marşrutlar var idi. Məsələn, Böyük İpək Yolu və s.

Ümumi şəkildə deyə bilərik ki, miqrasiya üç mərhələdən ibarətdir:

1) Miqrasiya mobilliyinin (şəxsin miqrasiya qabiliyyətinin), müəyyən miqrasiya münasibətlərinin, köçürülməyə psixoloji hazırlığın formalaşması.

2) Faktiki hərəkət.

3) Sosial fəaliyyətlər vasitəsilə yeni sosial mühitin yaxşılaşdırılması yolu ilə mövcud həyat tərzinin dəyişdirilməsinin obyektiv sosial prosesi kimi yeni köçkünlərin sağ qalma səviyyəsinin artırılması [26].

Miqrasiyanın funksiyaları miqrasiyanın cəmiyyətdə yerinə yetirdiyi spesifik rol oynayır və aşağıdakı xüsusiyyətlərə malikdir:

- hərəkətliliyin inkişafı - həm müxtəlif ərazilərin sakinlərinin tərkibinin dövriyyəsini, həm də onların yaşayış yerlərinin müxtəlifliyini müəyyən edən bu və ya digər səviyyəli məkan hərəkətliliyinin təmin edilməsi;
- ölkənin ayrı-ayrı əraziləri, o cümlədən təbii zonalar, rayonlar, müxtəlif tipli kənd və şəhər yaşayış məntəqələri arasında məhsuldar qüvvələrin yerləşdirilməsi ilə bağlı yenidən bölüşdürmə funksiyası;
